# *Prezident İlham ƏLİYEV:*

**Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır.**




*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

19 MART 2024-cü il | ÇƏRŞƏNBƏ AXŞAMI | № 61 (7819) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ




## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç.

Rusiya Federasiyasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə inamlı qələbəniz dövlətçiliyin möhkəmləndirilməsinə, davamlı sosial-iqtisadi inkişafa və ölkə əhalisinin rifahının yüksəldilməsinə yönəlmiş kursa rusiyalıların yüksək inamından və fəal dəstəyindən xəbər verir.

Məmnunluq hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər sabit inkişafı ilə seçilir. Sevindirici haldır ki, bu gün xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan bu əlaqələr müttəfiqlik münasibətləri və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda uğurla genişlənir və möhkəmlənir, onlara yeni məzmun əlavə olunur.

Əminəm ki, birgə səylərimiz bundan sonra da Azərbaycan-Rusiya hərtərəfli tərəfdaşlığının dərinləşməsinə, ikitərəfli gündəlikdə duran cari vəzifələrin həyata keçirilməsinə, ölkələrimizin və xalqlarımızın firavanlığı naminə bütün sahələrdə səmərəli qarşılıqlı fəaliyyətin təmin edilməsinə yönəldiləcək.

Hörmətli Vladimir Vladimiroviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, dost Rusiyanın rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 mart 2024-cü il.**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib.

Prezident İlham Əliyev Vladimir Putini prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik edib, ona ölkənin inkişafı və firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ölkələrimiz arasında müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edilib, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



# Prezident İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb və Azərbaycan xalqını bayram münasibətilə təbrik edib

*Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb.*

*AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib.*

**(davamı 3-cü səhifədə)**

## *Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik*

**Hörmətli həmvətənlər!**

**Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza bahar əhval-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə nailiyyətlər arzulayıram.**

**Öz mənşəyini tariximizin dərin qatlarından alan qədim Novruz bayramı ulu babalarımızın yüksək həyat eşqini, zəngin mənəviyyatını, geniş dünyagörüşünü və gələcəklə bağlı nikbin düşüncələrini dolğun təcəssüm etdirir. Onda cəmiyyətin təbiətlə vəhdətinin və insanlığa xas ali dəyərlərin - xeyirxahlığın, mərhəmətin, şəfqətin təntənəsi vardır. Milli özünüdərkin təşəkkülündə mühüm rol oynamış bu əziz bayram yurdumuzda, yüz illər əvvəl olduğu kimi, indi də xoş ovqatda rəngarəng mərasimlər və çoxsaylı el şənlikləri ilə qarşılanır.**

**Novruz ənənələrimiz çoxəsrlik mədəni keçmişinə həmişə xüsusi ehtiram göstərmiş müdrik xalqımızın bəşər sivilizasiyasına misilsiz töhfələrindəndir. Əcdadlarımızın müqəddəs yadigarı olan bu ənənələrin qorunub layiqincə yaşadılması və sonrakı nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.**

**Builki Novruz bayramı ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası şəraitində həyatımızın yeni mərhələsinin başlanğıcına təsadüf etməsi ilə əlamətdardır. Yaz fəslinin yeniləşdirici ab-havası daha güclü Azərbaycan naminə hər birimizin qurub-yaratmaq əzmini artırır. Əminəm ki, azadlığına qovuşmuş əzəli torpaqlarımıza əbədi qayıdışımızı qalibiyyət duyğusundan aldığımız böyük ruh yüksəkliyi ilə ən qısa zamanda uğurla gerçəkləşdirəcəyik.**

**Qəlbləri nurla dolduran Novruz bayramının hər evə, hər ocağa bol sevinc, ruzi-bərəkət və firavanlıq gətirməsini diləyirəm.**

**Bayramınız mübarək olsun!**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 mart 2024-cü il.**

## Cənubi Qafqazın təhlükəsizlik adası

**Hazırda terrorçuluğa qarşı mübarizə ən aktual çağırışlardan birinə çevrilib. Artan narahatlıqlar onunla bağlıdır ki, terrorçuluğun coğrafiyası getdikcə genişlənir və fəaliyyəti daha da aqressivləşir.**



Son vaxtlar ayrı-ayrı siyasi dairələrin, bəzi dövlətlərin terrorizmə dəstək verdiyinin şahidi oluruq. Ona görə də müxtəlif beynəlxalq qurumlar bu sahədə aktiv işlər görməyə başlayıb. BMT-nin, Dünya Bankının və digər akademik institutlar, beyin mərkəzləri, qeyri-hökumət təşkilatlarının istinad mənbəyi kimi çıxış edən "Global Terrorism Index" 2024-cü il üçün dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralamasını açıqlayıb.

**(davamı 10-cu səhifədə)**

## NATO-nun Baş katibi Yens Stoltenberqin Azərbaycana rəsmi səfəri

## Prezident İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə təkbətək görüşü olub



*Bax: səh. 2*

## Dünyanı narahat edən məsələlər ölkəmizdə müzakirə olunur

Ötən həftə paytaxt Bakı daha bir önəmli tədbirə ev sahibliyi etdi. Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumuna 68 ölkədən 400-dən çox qonaq qatılıb.




Hər il Azərbaycanda keçirilən Forum bu dəfə də iştirakçıların sayının çoxluğu və müzakirə olunan mövzuların əhatə dairəsinə görə fərqlənib. Tədbir çərçivəsində COP28-in nəticələri və COP29-a hazırlıq məqsədilə qlobal müzakirələr aparılıb, yeni dünya nizamına təhdid yaradan amillərə xüsusi yer verilib.

**(davamı 10-cu səhifədə)**



Güclü Azərbaycan Orta Dəhlizin mərkəzində

səh. 5



Qlobal iqlim dəyişmələrinin canlı aləmə təsiri və onların aradan qaldırılması yolları

səh. 8



Füzuli sakinləri arzularına qovuşur

səh. 9

# Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onların 6-sı NATO-ya üzv, digər ikisi isə NATO-nun tərəfdaş ölkəsidir.

## Prezident İlham Əliyev və NATO-nun Baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər

*Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və NATO-nun Baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış ediblər.*

*AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.*



### Prezident İlham Əliyevin bəyanatı



–Hörmətli cənab Baş katib.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Hörmətli cənab Baş katib, xoş gəlmisiniz, Sizi Azərbaycanda görməyimə çox şadam. Mənim dəvətimi qəbul edib səfərə gəldiyinizə görə təşəkkür edirəm. İki il əvvəl Brüsseldəki son görüşümüzü xoş təəssüratlarla xatırlayıram. Bu gün isə biz dialoqumuzu davam etdiririk.

Azərbaycan-NATO tərəfdaşlığının 30 ildən artıq davam edən uzun tarixi var. Tərəfdaşlığımız müsbət olmuşdur. Azərbaycan Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edib. Bu, bizim üçün böyük təcrübə olub. 2021-ci il avqustun axırında Əfqanıstanı tərk edən sonuncu müttəfiq qüvvələr bizim hərbi qulluqçularımız olmuşlar. Bu isə bir daha bizim əməkdaşlığımıza güclü sadiqliyimizi nümayiş etdirir.

Silahlı Qüvvələrimizdə aparılan islahatlar yaxşı nəticələr vermişdir. Biz müdafiə imkanlarımızı müasirləşdiririk və bu gün yüksək səviyyəli peşəkarlıq nümayiş etdiririk.

Uzun illər davam edən müzakirələrimiz zamanı biz həmişə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı haqqında danışırdıq. İndi, artıq üç ildən çoxdur ki, bu məsələ müzakirə mövzuları sırasında yer almır. Çünki Azərbaycan 2020-ci ildə İkinci Qarabağ müharibəsi və ötən ilin sentyabrında həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Beləliklə, ölkənin ərazisi üzərində tam suverenlik bərpa edilib və bu, uzunsürən münaqişələrin necə həll edilə biləcəyinin bariz nümunəsidir. Münaqişə hərbi-siyasi yolla həll edilib. Biz BMT Nizamnaməsinə əsasən özünümüdafiə hüququmuzdan istifadə etdik.

Hazırda isə biz Ermənistanla sülh danışıqlarının fəal mərhələsindəyik. Mənim Brüsselə sonuncu səfərim zamanı mətbuat konfransında bu məsələyə toxundum və qeyd etdim ki, Azərbaycan belə bir təşəbbüs irəli sürüb və biz Ermənistanın cavabını gözləyirik. Sülh danışıqlarına başlamağın bizim təşəbbüsümüz olduğunu bir daha bildirmək istərdim. Bu günədək sülh sazişinin layihəsinə dair ermənistanlı həmkarlarla 7 dəfə şərhlərin mübadiləsi baş tutub. Xarici işlər nazirləri və sərhədlərin delimitasiyası ilə bağlı Baş nazirlərin müavinləri arasında keçirilmiş görüşlər məsələnin həlli üçün yaxşı imkanın olduğunu nümayiş etdirir. Bu yaxınlarda qeyd etdiyim kimi, biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq.

Təəssüflər olsun ki, işğal dövründə danışıqlar heç bir nəticə vermədi, 28 il ərzində ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticəsi olmadı. Bu gün isə hesab edirəm və ümidvaram ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası nəticəsində bu mövzuda nəhayət nəticə əldə ediləcək. Zənnimcə, bu, Cənubi Qafqazda çox ciddi dəyişiklik olacaq. Bu isə o deməkdir ki, burada çoxdandır gözlənilən sülh bərqərar olacaq.

Bu gün biz cənab Baş katiblə, həmçinin enerji təhlükəsizliyi məsələsini müzakirə etdik. Mən ona məlumat verdim ki, Brüsseldəki son görüşümüzdən bəri qaz təchizatı baxımından NATO-ya üzv daha 2 dövlət bizim tərəfdaşımız oldu. Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onların 6-sı NATO-ya üzv, digər ikisi isə NATO-nun tərəfdaş ölkəsidir. Əminəm ki, qarşıdan gələn illərdə tərəfdaşlarımızın sayı artacaq. Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırır. Bu isə həm böyük üstünlük, həm də böyük məsuliyyətdir.

Həmçinin mən cənab Baş katibi bizim yaşıl keçid gündəliyi haqqında məlumatlandırdım. Azərbaycan yekdilliklə COP29-a ev sahibliyi edəcək ölkə seçilmişdir. Bu, bizim yaşıl keçidlə bağlı səylərimizin tanınmasının göstəricisidir. Zəngin təbii ehtiyatlara, qazıntı yanacağına malik ölkə olaraq biz tərəfdaşlarımızla birlikdə bərpaolunan enerji mənbələrinə sərmayə yatırırıq. Mən cənab Baş katibi bu ilin noyabrında vəzifəsindən asılı olmayaraq, ölkəmizə səfərə gəlməyə dəvət etdim ki, o, bu mühüm tədbirdə bizimlə birlikdə olsun.

Cənab Baş katib, səfərə gəldiyinizə görə təşəkkürümü bildirirəm və Azərbaycanda xoş vaxt keçirməyi arzu edirəm.

* * *

Sonra NATO-nun Baş katibi bəyanatla çıxış etdi.

### Baş katib Yens Stoltenberqin bəyanatı



–Çox sağ olun, cənab Prezident.

Cənab Prezident Əliyev, Bakıda yenidən olmaq çox xoşdur. Bu, mənim NATO-nun Baş katibi kimi Azərbaycana, Bakıya etdiyim ilk səfərdir. Lakin Bakıya ilk dəfə deyil ki, gəlirəm, çünki mən Norveçin energetika naziri kimi 1990-cı illərdə buraya dəfələrlə gəlmək şərəfinə nail olmuşam. Həmin səfərlər xatirimdədir, çünki ölkənizdə həmin vaxt enerji sektorunun çox inkişaf etdiyini və güclü olduğunu gördüm. Buna görə təhlükəsizliyimiz üçün enerjinin vacibliyini nəzərə alaraq enerji təhlükəsizliyinin müzakirəsi fürsətini əldə etmək məqsədilə buraya yenidən gəlmək çox xoşdur.



Mən Azərbaycanın bir neçə NATO müttəfiqi ilə sıx əlaqələrini inkişaf etdirməsini alqışlayıram və ölkənizin qazın çatdırılmasında, eləcə də gələcək enerjinin, yəni elektrik enerjisinin Avropada NATO-nun əsas müttəfiqlərinə ötürülməsində daha mühüm rol oynadığını görməkdən məmnunam.

Beləliklə, Siz cəmiyyətlərimizin güclənməsində mühüm rol oynayırsınız. Mən, həmçinin NATO-nun Baş katibi kimi burada, Bakıda olmağımdan məmnunam. Çünki Siz də qeyd etdiyiniz kimi, Azərbaycan NATO-nun uzunmüddətli tərəfdaşıdır. Biz uzun illərdir bir yerdə çalışırıq. Biz Kosovoda KFOR qüvvələrimizə verdiyiniz dəstəyi çox yüksək dəyərləndiririk, o cümlədən təbii ki, Prezident olduğunuz dövrdə Əfqanıstanda missiyamıza uzun illər verdiyiniz töhfə çox vacib idi. Siz tam haqlısınız. Əfqanıstanı tərk edən ən sonuncu qüvvələrdən biri Azərbaycan hərbçiləri olub. Çünki Siz hava limanının mühafizəsinə görə cavabdeh idiniz və bu, NATO qüvvələrinin Əfqanıstandan təxliyəsində əsas məsələ idi.

Beləliklə, bu göstərir ki, tərəfdaşlığımız təkcə siyasi dialoqa yox, o cümlədən əyani əməkdaşlığa söykənir və biz bunu alqışlayırıq. Bundan əlavə, təbii ki, bu regionda sülh bölgə xalqları, ölkələri üçün çox vacibdir, o, həmçinin Qara dəniz regionu və Şimali Atlantika təhlükəsizliyi üçün əhəmiyyətlidir. Buna görə də sülh və sabitlik nəinki burada, həmçinin daha geniş miqyasda təhlükəsizlik üçün vacibdir.

Uzun illərin münaqişəsindən sonra Ermənistan ilə Azərbaycan arasında hazırda davamlı sülhə nail olmaq imkanı var. Siz söylədiyiniz kimi, sülh sazişinə heç vaxt olmadığı qədər yaxın olmağınızla bağlı sözlərinizi yüksək qiymətləndirirəm. Mən Ermənistanla dayanıqlı sülh sazişinə nail olmaq üçün həmin fürsətdən istifadə etməyinizdə Sizi dəstəkləyirəm. Bundan əlavə, həmçinin qeyd etmək vacibdir ki, əgər daha geniş regiona nəzər salsanız, Ukrayna da Qara dəniz ölkəsidir. Bu ölkə NATO-nun tərəfdaşıdır və Rusiya Ukraynaya qarşı təcavüzkar müharibəni davam etdirir. NATO müttəfiqləri hazırda gedən müharibənin fəsadlarından çox narahatdır və NATO müttəfiqləri Ukraynaya dəstək göstərirlər. Mən Azərbaycanın Ukraynaya göstərdiyi çox zəruri dəstəyi alqışlayıram. Söhbət çox zəruri olan humanitar yardımdan gedir, lakin daha çox dəstəyə ehtiyac var, çünki Ukraynadakı vəziyyət olduqca ağırdır.

Mən, həmçinin Azərbaycanda keçiriləcək növbəti COP görüşünü çox səbirsizliklə gözləyirəm. İqlim dəyişmələri təhlükəsizlik üçün vacibdir və buna görə də o, NATO üçün də əhəmiyyətlidir. İqlim dəyişmələri böhranı dərinləşdirir və biz onun fəsadlarını dünyanın hər yerində, o cümlədən burada - Azərbaycanda görürük. Beləliklə, dünya enerjiyə ehtiyac duyur, lakin, eyni zamanda, biz qlobal istiləşməyə qarşı mübarizə aparmalıyıq. Biz enerjiyə olan tələbatı ətraf mühit məsələsi ilə uyğunlaşdırmalıyıq. Azərbaycan təkcə təbii qazını ixrac etmir, hazırda Siz, həmçinin alternativ enerjiyə sərmayə yatırırsınız.

Siz böyük potensial haqqında mənə məlumat verdiniz və su elektrik stansiyalarının, eləcə də külək və günəş enerjisi stansiyalarının tikintisi, elektrik enerjisinin Avropa bazarlarına çıxarılması planlarını təsvir etdiniz.

COP29 çox mühüm tədbir olacaq. Vacibdir ki, hamı iqlim dəyişmələrinə qarşı mübarizə aparsın. O, təhlükəsizliyimiz üçün vacibdir, çünki həmin məsələlər özünü aydın büruzə verir. Bu axşam və sabah məni və nümayəndə heyətimi qəbul etdiyinizə görə çox minnətdaram. Görüşləri və müzakirələri səbirsizliklə gözləyirəm.

Çox sağ olun.

**AZƏRTAC**

## Prezident İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə təkbətək görüşü olub



Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə təkbətək görüşü olub.

**AZƏRTAC**

## Prezident İlham Əliyevin NATO-nun Baş katibi ilə şam yeməyi əsnasında geniş tərkibdə görüş olub



Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə şam yeməyi əsnasında geniş tərkibdə görüşü olub.

**AZƏRTAC**

**Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq.**

# Prezident İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb və Azərbaycan xalqını bayram münasibətilə təbrik edib

## Prezident İlham Əliyevin təbriki




–Əziz bacılar və qardaşlar.

Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir. Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir.

Biz İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı nəticəsində böyük qəhrəmanlıq göstərmişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin, igid əsgər və zabitlərimizin fədakarlığı, peşəkarlığı, qəhrəmanlığı nəticəsində bu gün biz bu torpaqlarda qururuq, yaradırıq, bu torpaqlara həyat qayıdır. Geniş quruculuq işləri aparılaraq biz artıq keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytara bilmişik və bu il bu proses davam edəcək.

Əfsuslar olsun ki, İkinci Qarabağ müharibəsinin nəticələri Ermənistana dərs olmadı. Keçən ilin Novruz bayramı təbriklərimdə mən bu barədə danışmışdım və təəssüf hissimi bildirmişdim ki, İkinci Qarabağ müharibəsindəki onların məğlubiyyəti onlara dərs olmadı. Əgər dərs olsaydı, antiterror əməliyyatının keçirilməsinə ehtiyac olmazdı. Ermənistan İkinci Qarabağ müharibəsindən sonra keçən üç il ərzində düzgün nəticə çıxarmamışdır, öz qanunsuz silahlı birləşmələrini bizim torpağımızda əbədi saxlamaq istəyirdi, burada vaxtilə qanunsuz yaradılmış qondarma dırnaqarası Dağlıq Qarabağ respublikasını yaşatmaq istəyirdi. Bütün bunlar beynəlxalq hüquqa tamamilə ziddir və ən əsası Azərbaycan xalqının iradəsinə ziddir.

Azərbaycan İkinci Qarabağ müharibəsi nəticəsində öz ərazilərinin böyük hissəsini döyüş meydanında azad edib. Halbuki işğal dövründə dəfələrlə bir çox paytaxtlardan bizə siqnallar göndərilirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Biz sübut etdik ki, istənilən münaqişənin hərbi həlli var. Əgər işğalçı dövlət qanunsuz olaraq digər ölkənin ərazisini işğal altında saxlayır və o torpaqlardan öz xoşu ilə çıxmaq istəmirsə, yeganə yol hərbi yoldur. Biz beynəlxalq hüquqa çərçivəsində öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini özümüz döyüş meydanında bərpa etmişik.

Altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatı beynəlxalq hüququn təntənəsidir, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsidir. Biz bir daha göstərdik ki, öz yolumuzdan dönməyəcəyik, Ermənistanın arxasında istənilən qüvvələr dursalar belə, biz öz istədiyimizə nail olacağıq və nail olmuşuq.

Biz iyirmi il torpaqlarımızın azad olunmasına hazırlaşmışdıq. Bir çox istiqamətlər üzrə planlı şəkildə işlər gedirdi. Siyasi müstəvidə dünyada Azərbaycanın mövqeləri möhkəmləndi, dostlarımızın sayı böyük dərəcədə artmışdır. Beynəlxalq təşkilatlar bizim təşəbbüsümüzlə münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən və beynəlxalq hüquqa əsaslanan qərar və qətnamələr qəbul etmişlər və bu münaqişənin həlli üçün hüquqi və siyasi zəmin yaratmışdır. Biz iqtisadi inkişafa nail olduq, iqtisadi müstəqilliyə nail olduq və bu gün heç kimdən iqtisadi cəhətdən və təbii ki, siyasi cəhətdən asılı deyilik. Güclü iqtisadiyyat bizə imkan verdi ki, siyasi müstəvidə öz siyasətimizi müstəqil şəkildə aparaq. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır.

Təbii ki, əsas vəzifəmiz torpaqlarımızı işğalçılardan azad etmək idi. Bu məqsədlə hərbi gücümüzü artırmaq bizim əsas vəzifəmizdir. Ordumuzun, bütün Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artmışdır, maddi-texniki təchizat ən yüksək səviyyədə həll olunurdu və İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı bunu bütün dünyaya nümayiş etdirdi. Ən önəmlisi elə bir gənc nəsil yetişdirildi ki, bu gənc nəsil bizim xalqımız üçün əbədi qürur mənbəyi olacaq və bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü nümayiş etdirmişdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda yetişdirildi, üç il bundan əvvəl torpaqlarımızı azad etmək üçün ölümə getməyə hazır idilər və ölümə gedirdilər. Bir daha Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz bütün şəhidlərimizin, günahsız Xocalı qurbanlarının qanını döyüş meydanında aldıq və bununla fəxr edirik. İstənilən ölkə, istənilən xalq bununla fəxr edə bilər, o cümlədən biz. Biz ərazi bütövlüyümüzü, suverenliyimizi, beynəlxalq hüququmuzu, milli ləyaqətimizi bərpa etmişik və bu gün azad xalq kimi yaşayırıq, qururuq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq.



Uzun illər ərzində bu meydan və bu bina separatçıların yuvası idi. Ermənistan tərəfindən maliyyələşdirilən və silahlandırılan separatçılar faktiki olaraq Ermənistan ordusunun bir hissəsi idi. Məhz bu meydanda xalqımıza qarşı çirkin planlar hazırlanırdı. Məhz bu binada Xocalı soyqırımının törədilməsi üçün əmrlər verilmişdir. Bu gün isə biz bu meydanda dayanmışıq. Əziz xalqıma bildirmək istəyirəm ki, bu meydana mən "Zəfər meydanı" adı vermişəm, bundan sonra bura Zəfər meydanıdır.

Xankəndi qədim Azərbaycan torpağıdır, Pənahəli xan tərəfindən salınmışdır. Ancaq əfsuslar olsun ki, keçən əsrin 20-ci illərinin əvvəllərində tamamilə əsassız, heç bir hüquqi, siyasi və demoqrafik əsası olmadan burada muxtar vilayət yaradılmışdır və ondan sonra xalqımızın problemləri də başlamışdır. Nəticə etibarilə keçən əsrin 80-ci illərinin sonlarında Ermənistan bizə qarşı müharibə elan edərək, separatçı qüvvələri dəstəkləyərək, xalqımıza qarşı soyqırımı və digər qanlı cinayətlər törədərək, əfsuslar olsun ki, o vaxt öz çirkin arzularına çata bilmişdir. Hesab edirdilər ki, bu torpaqları işğal altında əbədi saxlaya biləcəklər. Bu məsələdə onlara dəstək verən xarici qüvvələr və bu gün dəstək verən xarici qüvvələr bu qanlı məsuliyyəti onlarla bölüşürlər. Bu gün biz azad edilmiş Qarabağda başımızı dik tutaraq yaşayırıq. Bu il Xankəndiyə və digər şəhərlərə, o cümlədən Xocalıya, Şuşaya, Cəbrayıla, Kəlbəcərə keçmiş köçkünlər qayıdacaqlar, bir neçə kəndə köçkünlər qayıdacaqlar və həyat qaynayacaq.

Xankəndi sovet dövründə də Azərbaycan büdcəsi hesabına, Azərbaycan memarları və inşaatçıları tərəfindən inşa edilmişdir. Bax, arxadakı bina Vilayət Partiya Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Həsən Məcidov idi. Onun yanındakı bina 1970-ci illərdə inşa edilmişdir, Vilayət İcraiyyə Komitəsinin binası idi. Bu binanın müəllifi Azərbaycan memarı Nəsrullah Kəngərli idi. Bu bina isə o vaxt mehmanxana kimi inşa edilmişdir. Ondan sonra ermənilər onun xarici görünüşünü dəyişdirmişdilər. İndi bu binanın əzəli siması ona qaytarılır və bu mehmanxananın müəllifi Azərbaycan memarı Ənvər Qasımzadə idi.

Bax, təkcə bu misallar onu göstərir ki, bu şəhəri və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində olan bütün şəhərləri, kəndləri salan, yaradan, memarlığının müəllifi olan, inşaat işlərində iştirak edən Azərbaycan xalqının nümayəndələri idi. Bu binalar bizim tarixi sərvətimizdir. Onlar qorunur, qorunacaq və gördüyünüz kimi, indi əsaslı təmir edilir. Durduğum yerdə isə separatçılar qondarma parlament binası inşa etmişdilər. Gördüyünüz kimi, artıq burada heç bir bina yoxdur. Bu, azmış kimi, onlar elə Şuşada ikinci parlament binasını inşa etməyə çalışırdılar, onun inşa işləri başlamışdır, amma çatdıra bilməmişlər və o bina söküldü. O binanın yerində indi beşulduzlu "Şuşa" oteli yerləşir. Keçmiş dırnaqarası parlament binası da söküldü və söküntü işləri fevralın 26-da başlamışdır.

Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə-yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür.

Əziz həmvətənlər, buradan xalqa təbriklərimizi çatdırmaq böyük xoşbəxtlikdir. Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq.

Mən bir daha əziz xalqımı qarşıdan gələn bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

**AZƏRTAC**





*Martın 17-də Heydər Əliyev Mərkəzində "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" adlı sərgi açılıb.*

*AZƏRTAC xəbər verir ki, sərginin açılışında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Özbəkistan Respublikası Prezidentinin köməkçisi Saida Mirziyoyeva iştirak ediblər.*

# Heydər Əliyev Mərkəzində "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" adlı sərgi açılıb

## *Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Özbəkistan Prezidentinin köməkçisi Saida Mirziyoyeva sərginin açılışında iştirak ediblər*








Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov sərginin açılış mərasimində çıxış edərək Azərbaycan və Özbəkistan arasında əsrlərə söykənən dostluq və qardaşlıq münasibətlərinin xüsusilə son illər Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin şəxsi münasibətləri əsasında uğurla inkişaf etdiyini vurğulayıb. Azərbaycan-Özbəkistan münasibətlərində mədəni əlaqələrin xüsusi yer tutduğunu qeyd edən Prezidentin köməkçisi ölkələrimizin mədəniyyət günlərinin uğurla təşkil olunduğunu xatırladıb.

Bu sərginin ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha bir göstəricisi olduğunu qeyd edən Anar Ələkbərov deyib: "Heydər Əliyev Mərkəzi hazırda beynəlxalq konfransların, sərgilərin keçirilməsi üçün platformaya çevrilib. Bu tədbirin keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürümüzü bildirmək istərdik. Bu gün biz Özbəkistan Respublikası Prezidentinin köməkçisi Saida Mirziyoyevanın və Özbəkistan Mədəniyyətinin və İncəsənətinin İnkişafı Fondunun sayəsində Heydər Əliyev Mərkəzində Özbəkistana həsr olunan birinci tədbiri keçiririk. Dünən "Lazgi. Qəlb və sevginin rəqsi" adlı balet tamaşasının təqdimatı oldu. Bu, UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil olan rəqsdir. Bildiyiniz kimi, gələn həftə Novruz bayramıdır. Bu bayram günlərində ziyarətçilərimiz həm bu gün açılan sərgi, həm də bu sərgi ərəfəsində Mərkəzdə Daniel Vürtzelin nümayiş etdirilən "Hava fontanı" instalyasiyası ilə tanış ola biləcəklər".

Özbəkistan Prezidentinin köməkçisi Saida Mirziyoyeva tədbirdə çıxış edərək Azərbaycanda olmaqdan və bu sərginin təşkilindən məmnunluğunu ifadə edib: "Bu gün Bakıda, Heydər Əliyev Mərkəzində "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" adlı böyük sərgi açılır. Bu sərgi təkcə dekorativ-tətbiqi sənət kolleksiyasını nümayiş etdirmir, həm də Özbəkistanın mədəni irsinin



zəngin müxtəlifliyinin canlı şahidi, onun tarixi dərinliyinin və mədəni təkamülünün təcəssümüdür".

Özbəkistan ilə Azərbaycan arasında bənzərsiz tarixi əlaqələrin mövcudluğunu qeyd edən Saida Mirziyoyeva vurğulayıb: "Hər iki dövlət çoxəsrlik tarixə və zəngin mədəni ənənələrə malikdir. Özbəkistanı və Azərbaycanı tarixdə, mədəniyyətdə və ənənələrdə çoxsaylı ortaq məqamlar birləşdirir. Hər iki xalq qonaqpərvərliyi, zəngin milli mətbəxi və tikmə, ağac üzərində oyma, keramika kimi nadir xalq sənəti irsinə sahibdir. Qoy bu böyük tədbir xalqlarımız arasında daha bir körpüyə, gözəllik və harmoniya ilə bağlı ortaq səylərimizin sübutuna çevrilsin".

Çıxışlardan sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Özbəkistan Prezidentinin köməkçisi Saida Mirziyoyeva Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan "Azərbaycan xalçası - ilmələrin rəqsi" və "Kukla incəsənətdə" sərgiləri ilə tanış olublar.

Qeyd edək ki, xalça kolleksiyası səkkiz il ərzində ərsəyə gəlib. Qədim sənətə yeni nəfəs verən sərginin kolleksiyasındakı "Yaranış", "Şikargah", "Xan ovu", "Cəng və barış", "Bəndi-rumi", "Şəbəkəli", "Adəm və Həvva", "Ağaclı", "Narlı", "Göllü", "Ləçək-turunc", "Dörd fəsil", "Tağlı", "Cəmadət" xalçaları, "Cənnət quşları" və "Cənnət bağı" dəstxalı - gəbələri bənzərsiz sənət nümunələri böyük maraqla qarşılanıb. Kolleksiyadakı xalçaların hər biri naxışları, ornamentləri vasitəsilə ziyarətçilərə öz mesajlarını çatdırır.

"Kukla incəsənətdə" sərgisində isə 200-dən çox kukla nümayiş etdirilir. Ekspozisiyada nümayiş etdirilən sənət nümunələrinin əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir. Həmin əsərlərin çoxu beynəlxalq kukla festivalları və biennalelərində qalib olub.

Daha sonra Mehriban xanım Əliyeva və Saida Mirziyoyeva "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" sərgisinin rəmzi açılışını bildirən lenti kəsdilər və ekspozisiya ilə tanış oldular.

Məlumat verildi ki, Özbəkistan Mədəniyyətinin və İncəsənətinin İnkişafı Fondu ilə birgə keçirilən sərgidə bu ölkənin muzey toplusundan olan 140-dan çox dekorativ-tətbiqi sənət nümunəsi nümayiş etdirilir. Dost ölkənin mədəni-tarixi irsinə və milli geyimlərinə həsr olunan ekspozisiya XIX-XX əsrlərdə Özbəkistana xas sənətkarlığın dirçəlişini əks etdirir. Buxaranın qızıl tikmələri hər zaman Özbəkistanda digər sənət növləri arasında xüsusi yer tutub.

"İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" sərgisi bir neçə bölmədən ibarətdir: kişilərin milli geyiminin əsas elementi olan qızıl naxışlı çapanlar (uzun üst geyimi) bölməsi, Daşkənd, Cizax, Səmərqənd, Şəhrisəbz, Nurata və Buxara kimi şəhərlərdə əl ilə işlənmiş, əsasən gül və ulduz motivlərinin üstünlük təşkil etdiyi dekorativ tekstil - suzani nümunələrinin nümayiş olunduğu tikmə bölməsi, Səmərqənd, Buxara və Qaraqalpaqstandan olan qədim ustaların gümüşdən, firuzə və digər qiymətli daşlardan hazırladıqları zərgərlik nümunələri bölməsi.

Tədbirdə Özbəkistanın milli musiqisi səsləndirilib.

Bakı sakinləri və paytaxtımızın qonaqları Heydər Əliyev Mərkəzində sərgi ilə iyulun 1-dək tanış ola bilərlər.

**AZƏRTAC**










# Azərbaycanda ilk dəfə "Lazgi. Qəlb və sevginin rəqsi" adlı balet tamaşası təqdim olunub

**Özbəkistanın Mədəniyyət və İncəsənətin İnkişafı Fondunun dəstəyi ilə Azərbaycanda ilk dəfə "Lazgi. Qəlb və sevginin rəqsi" adlı balet tamaşasının təqdimatı olub.**

Məşhur balet tamaşası iki gün - martın 16-da və 17-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində təqdim edilir.

AZƏRTAC xəbər verir ki, tamaşanı Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Özbəkistan Prezidentinin köməkçisi Saida Mirziyoyeva, mədəniyyət naziri Adil Kərimli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Milli Məclisin deputatları və digər qonaqlar izləyiblər.

Məşhur alman xoreoqrafı və baletmeysteri Raul Raymondo Rebekin quruluş verdiyi əsər UNESCO tərəfindən bəşəriyyətin Qeyri-maddi mədəni irs siyahısına daxil edilən qədim xalq rəqsi Lazgiyə (Ləzgi) həsr olunub.

Tamaşadan əvvəl Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayev jurnalistlərə açıqlamasında Azərbaycanla Özbəkistan arasında mədəni münasibətlərin son vaxtlar ən yüksək səviyyədə inkişaf etdiyini bildirib. Qeyd edib ki, ötən il Bakıda keçirilən Özbəkistan Mədəniyyət Günləri, eləcə də Azərbaycan kollektivlərinin Özbəkistana səfərləri hər iki ölkənin mədəniyyət xadimləri tərəfindən çox böyük sevgi ilə qarşılanır. "Özbəkistan səfərləri doğrudan da hər zaman bizim mədəni əlaqələrin inkişafına çox böyük yardım olur", - deyə Ə.Lalayev əlavə edib.

Xarəzm vilayətinin Dövlət Filarmoniyasının rəqqasəsi Gülnaz Artıkova tamaşa üzərində artıq 4 ildir ki, çalışdıqlarını söyləyib. O, Dubay, Moskva, Sankt-Peterburq şəhərlərində, həmçinin Almaniya, Türkiyə və bir çox ölkələrdə çıxış etdiklərini bildirib.

Özbəkistanın Əlişir Nəvai adına Dövlət Akademik Böyük Teatrının prima-balerinası, Özbəkistanın Əməkdar artisti Nadira Hamrayeva Bakıya gəldiyi üçün çox xoşbəxt olduğunu deyib: "Bizim mədəniyyətlərimiz çox yaxın, dillərimiz oxşardır, musiqi alətlərimiz ahənglidir. Ən əsası isə, xalq və klassik sənətimizə olan sevgimizi digər ölkələrə ötürmək imkanımız var. Həmçinin bu tamaşa Özbəkistanda balet truppası və folklor sənətçiləri arasında yaradılan ən inanılmaz layihələrdən biridir".

Sonra "Lazgi. Qəlb və sevginin rəqsi" baleti tamaşası təqdim edilib.

Süjet min illər əvvəl Böyük İpək Yolu ilə Orta Asiyadan keçən karvan dövründən başlayır. Səhranın hərarətində şamanların nəğmələri altında "Sevgi" oyanır və ölümsüz "Qəlb" öz əbədi rəqsinə başlayır. Bu, keçmişdən gələcəyə fantastik səyahət, çoxəsrlik ənənələri və xalq xüsusiyyətlərini təcəssüm etdirən qəlbin və əsrlər boyu onu izləyən sevginin hekayəsidir.

Xalqın tarixi, əcdadların xatirəsi, ruhların səsi - baletin hər bir pərdəsində zamanlar arasındakı əlaqə güclənir və buna görə də finalda "Qəlb" və "Sevgi" bölünməz bir bütövə çevrilir.

Baletin əsasında rəqsə və həyatın özünə olan sevgi dayanır. Xalq müdrikliyini təcəssüm etdirən və bir çox sirlərlə əhatə olunan Xarəzm rəqsinin tarixi üç min il əvvələ aiddir. Maraqlı enerji, alovlu hərəkətlər, mürəkkəb rəqs təsvirinə əsaslanan unikal üslub lazgini görkəmli mədəniyyət fenomenə çevirir. Özbəkistan milli baletinin tamaşası ilk dəfə 2021-ci ildə ictimaiyyətə təqdim edilib və dərhal tamaşaçıların rəğbətini qazanaraq mühüm sensasiyaya çevrilib.

Balet tamaşası üzərində dövrümüzün görkəmli rəssamlarından ibarət beynəlxalq komanda işləyib. Musiqisi bəstəkar Devidson Cakonello tərəfindən yazılıb, dünyaşöhrətli yapon multimedia rəssamı Yoko Seyama heyrətamiz dekorlar və işıq effektləri yaradıb.

Librettonun müəllifi və xoreoqrafı məşhur alman rəqqası, Dortmund baletinin baletmeysteri və "NRV Junior" baletinin bədii rəhbəri Raul Raymondo Rebekdir. O, 1987-2008-ci illərdə Berlin Dövlət Operasının, "Essendəki Aalto teatrı" adlı Alman Opera və Baleti Truppasının aparıcı solisti olub, "Prix de Lausanne" də daxil olmaqla, nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. Uilyam Forsayt və İrji Kiliandan Moris Bejara qədər, Rudolf Nureyevdən Rolan Petiyədək dünya səhnəsinin bir çox ulduzları ilə işləyib. Baletmeyster və xoreoqraf kimi Almaniya, Avstriya, İsveçrə, Monako, ABŞ, Kanada, Yaponiya və Honkonqdan olan kollektivlərlə əməkdaşlıq edib. Beləliklə, onun quruluş verdiyi əsərlər Astana, Berlin, Dortmund, Karlsrue, Münxen, Nyu-York, Seul və Ştutqart teatrlarının repertuarlarını bəzəyib.

**AZƏRTAC**



# Hakim partiyaların fəal dialoqu Azərbaycan-Çin münasibətlərinin inkişafına böyük töhfələr verir

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Çen Cou ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin siyasi iradələrinə uyğun olaraq iki hakim partiya arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığı vurğulanıb. Azərbaycan ilə Çin arasında əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının fəal dialoqu xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, çoxşaxəli əməkdaşlığımızın dərinləşməsinə, bütövlükdə Azərbaycan-Çin münasibətlərinin inkişafına böyük töhfələr verir. ■

## Hikmət HACIYEV:

# Azərbaycan ilə Çin arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətləri var

**Azərbaycan ilə Çin arasında ənənəvi dostluq və tərəfdaşlıq münasibətləri var.**

**Bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Çinə səfəri ilə bağlı AZƏRTAC-a açıqlamasında bildirib.**




H.Hacıyev deyib ki, Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşündə iki ölkə arasında əlaqələrin keyfiyyətcə yeni səviyyəyə qaldırılması, yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi ilə bağlı strateji tapşırıqlar verilib. Hazırda iki ölkə arasında əlaqələr bu istiqamətdə hərtərəfli şəkildə inkişaf edir. Bütövlükdə, Azərbaycanın xarici siyasətində Çin Xalq Respublikası ilə əlaqələrin hərtərəfli inkişaf etdirilməsi, münasibətlərin daha da dərinləşdirilməsi, keyfiyyətcə yeni səviyyəyə qaldırılması prioritet istiqamətlərdən biri kimi müəyyən edilib.

Prezidentin köməkçisi deyib: "Səfər çərçivəsində Çindən olan həmkarlarımızla birlikdə iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi, ilk növbədə siyasi məsləhətləşmələrin aparılması, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, eyni zamanda, "Orta Dəhliz" kontekstində əməkdaşlıq məsələləri müzakirə olundu. Orta Dəhliz hazırda beynəlxalq səviyyədə iqtisadi-ticari münasibətlərin inkişafında, daşımalarda öz əhəmiyyətini bir daha sübut edib. Çin tərəfindən də bu layihəyə böyük maraq var".

Bu il Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcəyini xatırladan Hikmət Hacıyev bildirib ki, Azərbaycan və Çin qlobal Cənubu təmsil edən, inkişaf etməkdə olan ölkələrdir. Çinin "yaşıl enerji" sahəsində böyük təcrübəsi var. Pekində keçirilən görüşlərdə bu məsələlərə dair ətraflı müzakirələr aparılıb.

Prezident Administrasiyasının rəsmisi beynəlxalq təşkilatlar çərçivəsində yaxın əlaqələri olan Azərbaycanın və Çinin bir-birinin mövqeyini dəstəklədiyini deyib. ■

# Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Pekində Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) baş katibinin müavini Nurlan Yermekbayev ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq məsələləri müzakirə olunub, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşı kimi fəal rolu vurğulanıb.

Qeyd olunub ki, Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa böyük önəm verir və əlaqələri daha da genişləndirməkdə maraqlıdır.

Görüşdə Azərbaycan ilə ŞƏT arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb. ■

# Pekində Azərbaycan-Çin əməkdaşlığı müzakirə olunub

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Çin Xalq Respublikasında səfərdədir.**



AZƏRTAC xəbər verir ki, Çinin xarici işlər nazirinin müavini Sun Veudon ilə görüşdə Azərbaycan və Çin prezidentləri arasında keçirilən görüşlərin, aparılan məktub mübadilələrinin ölkələrimiz arasında tərəfdaşlığın strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm amil olduğu vurğulanıb.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrə, COP29-la əlaqədar qarşıda duran məsələlərə, Orta Dəhliz üzrə əməldaşlığa, Cənubi Qafqaz regionunda sülh quruculuğuna dair fikir mübadiləsi aparılıb. Eyni zamanda, Azərbaycan ilə Çin arasında hərtərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib. ■

# Azərbaycan-İraq əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub

**İraqın Baş naziri Məhəmməd Şiya əs-Sudani Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə İraqın Azərbaycanla əlaqələrin möhkəmlənməsində maraqlı olduğu bildirilib. Azərbaycan-İraq əlaqələrinin hər iki ölkənin dövlət başçılarının birgə səyləri ilə yaradılmış dostluq münasibətləri əsasında inkişaf etdiyi qeyd olunub.

Qəbulda ticarət, investisiya, turizm, nəqliyyat, eləcə də iki ölkə üçün mühüm sahələr üzrə tərəfdaşlıq məsələləri müzakirə olunub. Azərbaycan-İraq iqtisadi münasibətlərinin mövcud vəziyyəti və inkişaf prioritetləri barədə fikir mübadiləsi aparılıb. İkitərəfli ticarət dövriyyəsinin genişləndirilməsinin və qarşılıqlı sərmayələrin artırılmasının əhəmiyyəti vurğulanıb.

* * *

**Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti, həmçinin İraqın Baş nazirinin müavini, neft naziri Hayan Əbdülğani ilə görüşüb.**

Bildirilib ki, Azərbaycan-İraq tərəfdaşlığının müxtəlif vektorlar üzrə genişlənməsi üçün əlverişli zəmin mövcuddur. Enerji sahəsində əməkdaşlıq ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafında mühüm yer tutur. Bu sahədə qarşılıqlı faydalı işbirliyi üçün potensial diqqətə çatdırılıb.

Nümayəndə heyəti karbonsuzlaşdırma və enerji keçidi sahəsində görülən işlər barədə məlumat verib. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin və ölkəmizin COP29 tədbirinə ev sahibliyinin enerji keçidi prosesinə milli töhfələri artıracağı qeyd edilib.

Görüşdə Azərbaycanın "yaşıl enerji"yə keçiddə hədəfləri, SOCAR-ın bu istiqamətdə tərəfdaşlarla birgə icra etdiyi layihələr və enerji məsələləri üzrə işbirliyi imkanları barədə fikir mübadiləsi aparılıb.

* * *

**Azərbaycanın iqtisadiyyat nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti İraqın ticarət naziri Ater Davud Əl-Ğureyri ilə də görüşüb.**

Azərbaycanın dayanıqlı iqtisadi inkişafı, biznes mühitinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən islahatlar diqqətə çatdırılıb. Bildirilib ki, ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələri üzrə 160 İraq investisiyalı kommersiya qurumu fəaliyyət göstərir. Ötən il ölkəmizdən İraqa ixrac üzrə qeyri-neft-qaz məhsullarının üstünlük təşkil etdiyi qeyd olunub. İraq bazarına ixrac potensialı olan məhsullar və geniş logistik imkanlar diqqətə çatdırılıb.

İki ölkə arasında ticarət münasibətlərinin arzulanan səviyyəyə çatdırılması üçün münbit şəraitin olduğu ifadə olunub. Tərəflər iqtisadi-ticari əlaqələrin şaxələndirilməsində maraqlı olduqlarını, işgüzar dairələrin qarşılıqlı səfərlərinin təşkil olunmasının önəmini qeyd ediblər.

Görüşdə ölkələrimizin biznes dairələri arasında əməkdaşlığın gücləndirilməsi, infrastruktur layihələri üzrə birgə fəaliyyət və Azərbaycan-İraq biznes forumunun keçirilməsi ilə bağlı məsələlər nəzərdən keçirilib. İraqlı iş adamları Azərbaycandakı biznes və ixrac imkanlarını dəyərləndirmək məqsədilə ölkəmizə səfərə dəvət edilib. ■

# Güclü Azərbaycan Orta Dəhlizin mərkəzində

**Yeni dünya düzənində Azərbaycan təkcə tranzit ölkə deyil, nəqliyyat dəhlizlərinin həyat qabiliyyətini, səmərəliliyini və dayanıqlı inkişafını təmin edən mühüm qlobal aktordur. Azərbaycan Prezidenti İlham Əliyev ötən il yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda keçirilən panel iclasında iştirak edib. Dövlətimizin başçısı iclasda çıxışı zamanı bildirmişdir ki, Orta Dəhlizin üstünlüklərindən biri ondan ibarətdir ki, bu nəhəng layihədə iştirak edən ölkələr öz aralarında yaxşı münasibətlərə malikdir. Azərbaycan özünün qərbində olan qonşuları Gürcüstan və Türkiyə, şərqində isə Mərkəzi Asiya ilə gözəl münasibətlərə malikdir.**

Dövlət başçısı bildirib: "Qərb və Şərq arasında təbii coğrafi bağlantıya malik olduğumuz üçün biz ötən illər ərzində nəqliyyat infrastrukturuna böyük sərmayə yatırmışıq. Azərbaycanda bütün zəruri infrastruktur obyektləri daha çox yük qəbul etməyə hazırdır. Yükaşırma qabiliyyəti 15 milyon ton olan dəniz limanımız 25 milyon tona qədər genişlənəcək və artıq bunun üçün vəsait ayrılıb. Bu ildən etibarən neftin tranzitini təkcə Türkmənistandan yox, Qazaxıstandan da etməyə başlamışıq və bu dəhlizdən, həmçinin karbohidrogenlər üçün də istifadə etmək potensialı mövcuddur".

Qədim İpək Yolunun yenidən dirçəldilməsi qlobal və regional güclərin tarix boyu maraq dairəsində olmuşdur. Müasir dünyada iqtisadi əlaqələr sisteminin vacib elementi hesab edilən beynəlxalq nəqliyyat daşımaları və logistik infrastruktur quruculuğu bir çox dövlətin siyasi gündəmində mühüm yer tutur. Son 30 ildə planetin hegemon gücləri Uzaq Şərqdən başlayaraq Mərkəzi Asiya, Cənubi Qafqaz, Yaxın Şərq və Anadolu torpaqlarını keçməklə Avropaya qədər uzanan çoxşaxəli tranzit şəbəkənin qurulması istiqamətində dəyəri milyard dollarla ölçülən və onlarla ölkəni əhatə edən kommunikasiya və inteqrasiya lahiyələri təqdim ediblər. Qitələrarası çoxtəyinatlı tranzit qovşaqların və regional logistik mərkəzlərin inkişaf etdirilməsində daha çox Avropa İttifaqı və Çin kimi siyasi aktorlar iri büdcəli dövlət proqramlarının icrasını həyata keçirib. Dünya Bankının proqnozlarına görə, əgər uyğun logistika və nəqliyyat şərtləri təmin olunarsa, 2030-cu ilə qədər Çin ilə Avropa İttifaqı arasında ticarət dövriyyəsi 30 faiz artacaq. Amma bunun üçün tələblərə cavab verən nəqliyyat dəhlizinin olması vacibdir. Çin və Avropa dünyanın ayrı-ayrı qüvvələrində yerləşir, aralarında təxminən 9 min kilometr məsafə var. Ona görə də hazırda bu iki ölkənin arasında malların daşınması üçün yeni marşrutun seçilməsi bütün dünyanın diqqət mərkəzindədir. Orta Dəhliz adlandırılan marşrut bu layihəyə əsas namizəddir.

Bu il yanvarın son günlərində Brüsseldə keçirilən "Aİ-Mərkəzi Asiya nəqliyyat investisiya forumu" çərçivəsində açıqlanan məlumatdan aydın olur ki, Avropa İttifaqı Çindən Avropaya yükdaşımalar üçün Mərkəzi Asiya, Xəzər dənizi Azərbaycan və Gürcüstandan keçən Trans-Xəzər nəqliyyat dəhlizinin inkişafına 10 milyard avro vəsait ayırır. Bu addım Orta Dəhliz adlandırılan layihənin perspektivlərinə dair gözləntiləri daha da artırır. Orta dəhlizin əhəmiyyəti və perspektivləri ötən il noyabr ayında Dünya Bankının ABŞ-da nəşr olunan hesabatında da geniş şərh edilib.




Məlumat üçün qeyd edək ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq qurumlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır.

2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda iki dəfə olmaqla Türkiyədən Çinə müntəzəm şəkildə konteynerlərin daşınması həyata keçirilir. Regiondakı digər dövlətlərin də iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq nəqliyyat layihəsi olan Orta Dəhliz iqtisadi baxımdan səmərəli olduğu kimi, onun siyasi əhəmiyyəti də az deyil. Belə ki, Asiya ilə Avropanı birləşdirən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin davamı olan Orta Dəhliz ideyası dünyada baş verən gərgin geosiyasi proseslər fonunda meydana çıxıb. Azərbaycan işğal altındakı Qarabağı azad etdikdən sonra regionun digər dövlətlərinin də beynəlxalq iqtisadi layihələrdə iştirakına imkan yaranıb. Eyni zamanda bu Qələbə Azərbaycanın Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm tranzit məntəqəsi olmasını şərtləndirir.

Bu günlərdə Bakıda "Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi üzrə çoxtərəfli görüş keçirilib.

Ötən ilin yekunları göstərir ki, Azərbaycan ərazisindən daşınan yükün həcmində 30 faizdən çox artım qeydə alınıb. Bu da regiona, o cümlədən yükdaşımalar baxımından ölkəmizə marağın artmasından xəbər verir. Regionun nəqliyyat habına çevrilən Azərbaycan burada aparıcı ölkədir və Zəngəzur dəhlizinin istifadəyə verilməsi onun beynəlxalq yükdaşımalarda mövqeyinin gücləndirilməsi baxımından vacibdir. Hazırda Horadiz-Ağbənd yolunun 38, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun isə 74 faizi tikilib və bu yolların 2025-ci ildə istismara verilməsi gözlənilir. Bu da Orta Dəhliz ideyasının tezliklə reallığa çevriləcəyini söyləməyə əsas verir. Onun siyasi əhəmiyyətinə gəlincə, nəzərə almaq lazımdır ki, Çin və digər Cənub Şərqi Asiya dövlətlərinin Avropa ilə ticarət əlaqəsi Orta Dəhlizlə reallaşacağı təqdirdə, onlar regionda daim sabitliyin hökm sürməsində maraqlı olacaqlar.

Orta Dəhliz və ya Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Asiya və Avropa arasında tamdəyərli ticarət və investisiya əlaqələri üçün yeni imkanlar açır. Ölkəmiz beynəlxalq tərəfdaşlarımızla bu dəhlizin inkişafına xüsusi diqqət ayırır. Hazırda Qazaxıstanla Azərbaycan arasında iki mühüm sahədə sıx əməkdaşlıq var. Bunlardan birincisi Asiyadan Avropaya və əksinə yükdaşımalardır. Çindən Qazaxıstan vasitəsilə yüklərin Xəzər dənizi-Azərbaycan-Gürcüstan-Avropa marşrutu ilə daşınmasını nəzərdə tutan marşrut Orta Dəhliz layihəsinin ən mühüm komponentidir. Ukraynadakı müharibə, həmçinin Qırmızı dənizdə yaranan gərginlik bu dəhlizin əhəmiyyətini qat-qat artırır, onunla hərəkətin ən səmərəli hala gətirilməsi zərurətini aktuallaşdırıb. Bu prosesdə iki əsas açar ölkə olaraq Qazaxıstanla Azərbaycanın fəaliyyətlərini sıx koordinasiya etməsi mühüm amil hesab olunur. Prezident Kasım-Jomart Tokayevin hələ 24 avqust 2022-ci ildə Azərbaycana səfəri zamanı görüşlər çərçivəsində mümkün alternativlərdən biri kimi Bakı limanları vasitəsilə yükdaşımaların həyata keçirilməsinin mümkünlüyü müzakirə olunmuşdu.

***Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq getdikcə genişlənir***

Beləliklə, Orta Dəhlizin əsas üstünlüyü ondan ibarətdir ki, bütün iştirakçı dövlətlər bu marşrutun funksionallığının artırılması üçün güclü siyasi iradə nümayiş etdirirlər. Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq getdikcə genişlənir ki, bu da yükdaşımalar, yüklərin cəlb edilməsi, logistika ilə bağlı məsələlərin uzlaşdırılmasına geniş imkanlar yaradır. Digər bir üstünlüyü onun Türk Dövlətləri Təşkilatına daxil olan ölkələri birləşdirmək imkanıdır. Yəni bu dəhliz, yük daşınma trayektoriyası (yolu) kimi cəlbedici olmaqla yanaşı, həm də Türk dünyasının birliyi baxımından da strateji əhəmiyyət kəsb edir.

**Mustafa KAMAL,**
**"Respublika".**

# Milli dövlətçiliyimizin qorunması yolunda atılan qətiyyətli addımlar



*70 il Sovetlər İttifaqının tərkibində yaşasa da, özünün ən ali dəyərlərini, milli adət-ənənələrini qoruyub saxlayan xalqımız istiqlaliyyəti uğrunda mətanətlə mübarizə apararaq ötən əsrin sonlarında müstəqilliyini bərpa etdi. Lakin mürəkkəb tarixi proseslərin getdiyi bir dövrdə xalq lidersiz, rəhbərsiz idi. Xarici və daxili qüvvələrin planı əsasında ölkədə baş verən hadisələr böyük çətinliklərlə yenidən əldə olunmuş müstəqilliyimizi təhlükə altında qoydu. Müdrik xalqımızın, ziyalı təbəqəsi dövlətimizin müstəqilliyinin qorunub saxlanılmasında, onun dayaqlarının möhkəmləndirilməsində yalnız ulu öndər Heydər Əliyevə etimad göstərdi və dahi şəxsiyyəti israrla, təkidlə respublika rəhbərliyinə dəvət etdi.*

## 1995-ci il mart ayının 19-da Prezident Sarayında respublikada dövlət çevrilişi cəhdi və onun qarşısının alınması ilə bağlı müşavirə keçirilmişdir

Dünyaşöhrətli siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışı dövlətçiliyimiz tarixində yeni mərhələnin başlanğıcı oldu. Müstəqillik yolunda kövrək addımlarını atan respublikamızda rus imperiyasının "miraslarından" qurtulmaq, dövlət quruculuğunda mütərəqqi inkişaf strategiyasını hazırlamaq üçün mühüm əhəmiyyətli işlərə başlanıldı, xalqın taleyüklü məsələlərinin ardıcıl həllinin fundamenti yaradıldı, nizami ordu formalaşdırmaq, qanunsuz silahlı dəstələrin, başıpozuq hərbi birləşmələrin ləğvi istiqamətində konkret addımlar atıldı. Bu isə xalqın azad yaşamasını istəməyən, onun sahib olduğu sərvətləri öz şəxsi məqsədləri üçün hər vasitəyə əl atan, Azərbaycanı parçalamaq istəyən daxili və xarici düşmənləri ciddi təşvişə salmışdı.

90-cı illərin əvvəllərində yaradılan Xüsusi Təyinatlı Polis Dəstəsi Birinci Qarabağ müharibəsi zamanı nizami ordunun formalaşmadığı, silah-sursatın, hərbi komandanlığın olmadığı bir dövrdə ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlar göstərmiş, dəstənin neçə-neçə üzvü torpaqlarımızın azadlığı yolunda şəhidlik zirvəsinə yüksəlmişdir. Lakin Rövşən Cavadov XTPD-yə rəhbər təyin olunduqdan sonra bu dəstəni ərazilərimizin 20 faizdən çox hissəsini işğal edən erməni qəsbkarlarına qarşı deyil, özünün hakimiyyət uğrunda mübarizəsinə yönəltdi. 1995-ci il martın 12-13-də Rövşən Cavadovun rəhbərliyi ilə həmin qüvvələr dövlət çevrilişinə cəhd göstərdilər. Mart ayının 15-də ulu öndər Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciətində bu dəstə haqqında fikirlərini belə bildirmişdi: "Həmin bu Xüsusi Təyinatlı Polis Dəstəsi 90-cı ildə, hələ Sovet hakimiyyəti dövründə yaranıb. Ancaq bunun fərqi yoxdur: o, Azərbaycanın erməni təcavüzündən qorunması üçün yaradılıb. Bəli, çox sağlam əsasda yaranıb. Ancaq onu yaradanlar Rövşən Cavadov deyil, başqaları olub. O dəstələr vuruşublar, döyüşüblər, fəaliyyət göstəriblər, şəhid veriblər. Bunlar hamısı xalqın tarixində əks olunub. Mən o şəhidlərin ruhu qarşısında bu gün də baş əyirəm".

Rövşən Cavadovun rəhbərliyi ilə XTPD və onun ətrafında olan silahlı qüvvələr tərəfindən Qazax və Ağstafa rayonlarında dövlət çevrilişinə cəhd göstərilmiş, rayonda dövlət hakimiyyət orqanlarının yerləşdiyi binalara hücumlar təşkil olunmuş, bütün polis işçiləri tərk-silah edilmişdir. Ulu öndərin milli televiziya ilə müraciətinə, silah və sursatını könüllü təhvil verənlərin cinayət məsuliyyətinə cəlb olunmayacağı vədlərinə məhəl qoymayan XTPD silahlı basqınlarını ayrı-ayrı bölgələrdə, hətta paytaxt Bakıda da həyata keçirmək niyyətində idi. Lakin Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa çalışanların niyyəti baş tutmadı, Müdafiə Nazirliyinin hərbi hissələri, hüquq-mühafizə orqanları - Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Milli Təhlükəsizlik Nazirliyi, Xüsusi İdarə və başqa orqanların həyata keçirdiyi tədbirlər nəticəsində dəstə tamamilə zərərsizləşdirildi və dövlət çevrilişi cəhdinin qarşısı alındı.

1995-ci il mart ayının 19-da Prezident Heydər Əliyev respublikada dövlət çevrilişi cəhdi və onun qarşısının alınması ilə bağlı Prezident Sarayında keçirilən müşavirədə görülən tədbirlər barədə məlumat vermis, artıq bu cəhdin hazırlanması ilə bağlı mühüm sənədlərin əldə olunduğunu bildirmişdir. Ulu öndər Azərbaycanın dövlətçiliyinə qarşı fəaliyyət göstərən bu dəstənin xarici qüvvələr tərəfindən maliyyələşdirildiyini, dəstənin üzvlərinin tərk-silah edildiyinə baxmayaraq, hələ də təhlükənin olduğunu vurğulamışdır: "Ona görə də Vətəninə sadiq olan hər bir vətəndaş bilməlidir ki, bu gün Azərbaycanın həyatında çox gərgin vəziyyət yaranmışdır və bu gərginlik hələ aradan qalxmamışdır. Doğrudur, Azərbaycanda təxribat etmək istəyən, təcavüz etmək istəyən, onun dövlətçiliyini dağıtmaq istəyən qüvvələrin istinad etdiyi, istifadə etdiyi ən qorxulu hərbi hissə dağıdılmışdır. Ancaq yenə deyirəm, onları bu işə istiqamətləndirən qüvvələrin hamısı öz yerindədir. Şübhəsiz ki, indi onlar böyük zərbə almışlar, lakin öz çirkin niyyətlərindən əl çəkmirlər".

Ölkə vətəndaşlarını ayıq-sayıq olmağa çağıran Ulu öndər dövlətçiliyimizin qorunması yolunda hər kəsin eyni amal ətrafında birləşməsinin vacibliyini vurğulamış və əks mövqedə olanları doğru yola dəvət etmişdir. Müstəqilliyimizin əleyhinə atılan hər bir yanlış addımın vaxtında qarşısının alınması üçün Azərbaycanın silahlı qüvvələrinin, dövlətin kifayət qədər gücü olduğunu qeyd etmişdir. Ümummilli lider dəstənin cinayətkar, qanuna tabe olmayan hər bir üzvünün, o cümlədən insanları silahlı dəstələrdə birləşdirib cinayət törətməyə sövq edənlərin öz cəzasını alacağını bildirmiş, könüllü surətdə silahlarını təhvil verənlərə, hökumətə təslim olanlara isə xəyanət və cinayət hərəkətlərindən əl çəkməyi tövsiyə etmişdir. Ulu öndər hüquq-mühafizə orqanlarına bu hadisə ilə bağlı ciddi tədbirlər görməsi barədə tapşırıq vermişdir: "Bunları təcili olaraq və ciddi həll etmək lazımdır. Ona görə ki, kənarda qalan hər bir cinayətkar yeni cinayət törədə bilər. Nə qədər ki, belələrinin hamısı tutulmamışdır, cəmiyyətdən təcrid olunmamışdır, cinayət etmək təhlükəsi göz qabağındadır. Bu, bizim polis orqanlarının ümdə vəzifəsidir və onu həyata keçirmək lazımdır".

Müşavirədəki yekun nitqində Ulu öndər bir daha Azərbaycanın öz dövlətçiliyini qorumaq, inkişafını təmin etmək iqtidarında olduğunu bəyan etmiş, müxalifət adı altında cinayətkarlıqla məşğul olanların, dövləti devirmək, parçalamaq istəyənlərin hər birinin haqq-ədalət məhkəməsində cavab verəcəklərini, bir cinayətkarın belə kənarda qalmayacağını bildirmişdi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**






# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

**Martın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında iclası keçirilib.**

İclasda çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mühüm nailiyyətlərlə zəngin olan 2023-cü ilin Azərbaycanın tarixinə qızıl hərflərlə yazıldığını qeyd edib. Ötən ilin sentyabrında Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilmiş antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi və konstitusiya quruluşunun tam bərpa olunduğunu diqqətə çatdıran Tahir Budaqov bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev 44 günlük Vətən müharibəsində əldə edilmiş böyük Zəfərdən sonra baş tutmuş YAP-ın VII qurultayında Azərbaycanın inkişafında yeni tarixi mərhələnin başlanmasının anonsunu vermiş və partiyanın qarşısında yeni dövrə uyğun addımların atılması vəzifəsini qoymuşdu. Qurultayda YAP-ın yeni Nizamnaməsinin qəbul olunduğunu, daha sonra isə partiyanın yeni Proqramının hazırlanaraq İdarə Heyətinin qərarı ilə təsdiq edildiyini xatırladan YAP Sədrinin müavini qurultaydan keçən müddət ərzində partiyanın həyatında çox önəmli hadisələrin baş verdiyini diqqətə çatdırıb. O, Yeni Azərbaycan Partiyasının təsis olunmasının 30 illiyi ilə bağlı 2022-ci ildə ölkə miqyasında və beynəlxalq müstəvidə silsilə tədbirlərin reallaşdırıldığını, ötən il isə xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə partiyanın Tədbirlər Planının mütəşəkkil qaydada icra edildiyini xüsusilə vurğulayıb.

2024-cü ilin ölkəmizin gələcəyi üçün mühüm ictimai-siyasi hadisə - növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə başladığını qeyd edən Tahir Budaqov cənab İlham Əliyevin xalqımızın mütləq əksəriyyətinin dəstəyi ilə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin dövlət başçısının ötən 20 il ərzində respublikamıza möhtəşəm uğurlar və qələbələr qazandıran məqsədyönlü siyasətinin qanunauyğun nəticəsi olduğunu söyləyib. O, ölkəmizin bundan sonra da Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə tarixi zəfərlərə imza atacağına əminliyini ifadə edib.

YAP Mərkəzi Aparatından verilən məlumata görə, daha sonra iclasın gündəliyi barədə məlumat verilib. İclasın müzakirəsinə Yeni Azərbaycan Partiyasının 2023-cü il üzrə maliyyə hesabatının təsdiq edilməsi və cari məsələlər çıxarılıb.

Müzakirələr zamanı YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Anar İsgəndərov və Elmar Qasımov, YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova və Auditorlar Palatasının nümayəndəsi Elza Süleymanova çıxış edərək maliyyə hesabatının şəffaf və mükəmməl səviyyədə hazırlandığını vurğulayıblar. Sonra 2023-cü il üzrə maliyyə hesabatı İdarə Heyətinin üzvləri tərəfindən təsdiq olunub. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qanunvericiliyə uyğun olaraq maliyyə hesabatının auditor rəyi ilə birlikdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim ediləcəyini diqqətə çatdırıb.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb.

Yekunda YAP Mərkəzi Aparatının rəhbəri iclas iştirakçılarını qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib, onlara möhkəm cansağlığı və işlərində uğurlar arzulayıb.

**Xaqani KOSAYEV,**
**"Respublika".**

# Novruz bayramı ərəfəsində hərbi qulluqçularla görüş

**Novruz bayramı ərəfəsində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mərkəzi Aparatının və ərazi hərbi prokurorluqlarının rəhbər vəzifəli şəxsləri Müdafiə Nazirliyinin yüksəkrütbəli zabitləri, hərbi hissələrin dislokasiya olunduğu müvafiq rayonların icra hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə Vətənin müxtəlif bölgələrində, o cümlədən işğaldan azad edilmiş tarixi torpaqlarımızda yerləşən hərbi hissə və bölmələrdə hərbi qulluqçularla görüşüblər.**

Hərbi Prokurorluqdan bildirilib ki, görüş iştirakçıları Vətəni və milləti qarşısında misilsiz xidmətləri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.





Bundan sonra Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasətini dövrün tələblərinə uyğun davam etdirən möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün istiqamətlər üzrə qazandığı uğurlardan, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımızın hərtərəfli inkişafından, qüdrətli Azərbaycanın əzəmətinin daha da artaraq dünya ölkələri sırasında böyük nüfuz və söz sahibinə çevrilməsindən, Silahlı Qüvvələrimizin qüdrətindən bəhs olunaraq, qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin fəaliyyətinin də mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilib. Eyni zamanda, Vətən müharibəsində əldə olunan möhtəşəm Qələbə və lokal xarakterli antiterror tədbirləri xüsusi vurğulanmaqla, qürur dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Ardınca hüquqi-maarifləndirici mövzularda çıxışlar olunub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, onların qayğı və problemləri ilə maraqlanılıb, hərbi hissələrə müxtəlif bayram sovqatları, üzərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə isə qiymətli hədiyyələr təqdim olunub.

Sonda "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar müxtəlif ağaclar əkilib və Novruz tonqalları alovlandırılıb.

**"Respublika".**

# "Qlobal Təkrar Emal Günü"ndə "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə məlumat turu təşkil olunub

**Ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili"nin elan olunması və COP29 kimi mötəbər tədbirin keçirilməsi çərçivəsində "Təmiz Şəhər" ASC-nin təsərrüfat sahələrinə məlumat turu təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, ictimai şəxslərin, bloger, influenser və media nümayəndələrinin iştirak etdiyi məlumat turunda "Təmiz Şəhər" ASC-nin fəaliyyəti, Bakı şəhərində bərk məişət tullantılarının idarə edilməsi və təkrar emal prosesi ilə bağlı ətraflı məlumat verilib.

Bildirilib ki, 2017-ci ildə ölkə başçısının iştirakı ilə açılışı olan Balaxanı Sənaye Parkı təkrar emal sahəsini inkişaf etdirmək məqsədilə yaradılıb. Müasir texnoloji yeniliklər tətbiq edilməklə dayanıqlı inkişaf prinsiplərinə və ətraf mühitin mühafizəsi standartlarına uyğun fəaliyyət göstərən Balaxanı Sənaye Parkı tullantıların təkrar emalı ilə məşğul olmaq istəyənlər üçün əlverişli məkandır. Dövlət tərəfindən burada fəaliyyət göstərən rezidentlər 10 il müddətinə mənfəət, torpaq, əmlak, əlavə dəyər vergisindən və istehsal məqsədilə idxal edilən texnoloji avadanlıqlar idxal rüsumundan azad olunur.

Sahibkarlar tərəfindən istehsal sahəsinə ümumilikdə 52 milyon manat investisiya qoyulub. Sənaye Parkının fəaliyyəti dövründə 229 milyon manat dəyərində istehsal edilən məhsulun 23 milyon manat həcmində olan hissəsi xarici ölkələrə ixrac edilib. 25 rezidentin qeydiyyatdan keçdiyi Balaxanı Sənaye Parkında 1126 yeni iş yeri yaradılıb.







Tur çərçivəsində qonaqlar Bakı bərk məişət tullantılarının yandırılması zavodunda da olublar. Məlumat verilib ki, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən açılışı olan zavod dördüncü nəsil (4G) texnologiyaların tətbiqi ilə qurulub və ətraf mühitin mühafizəsi sahəsində normativlərə tam cavab verir. İllik gücü 500 min ton olan zavodda tullantıların yandırılması nəticəsində il ərzində 200 mln kvt/saata qədər elektrik enerjisi əldə olunur. Bu isə 100 min ev təsərrüfatını elektrik enerjisi ilə tam təmin etməyə imkan verir.

Sonda tur iştirakçılarına "Təmiz Şəhər" ASC-nin fəaliyyətini əks etdirən broşürlər paylanılıb, onları maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində və Bakıda keçiriləcək COP29 öncəsi ictimai şəxslərin, bloger, influenser və media nümayəndələrinin ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmə işinə dəstək vermələrinin zəruri olduğu ifadə edilib. ■

# Azərbaycanın xarici işlər naziri NATO-nun Baş katibi ilə görüşüb

**Martın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov NATO-nun Baş katibi Yens Stoltenberq ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə NATO arasında əməkdaşlıq gündəliyindən irəli gələn məsələlər, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin NATO ilə əməkdaşlığın, xüsusilə bu il 30-cu ildönümü tamam olan "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində həyata keçirilən birgə fəaliyyətin daha da inkişafına əhəmiyyət verdiyini diqqətə çatdırıb.





Beynəlxalq sülh və təhlükəsizliyə töhfəyə istiqamətlənən əməkdaşlığımızın, eyni zamanda, müvafiq sahə üzrə islahatlar, təkmilləşdirmə və ixtisasartırma fəaliyyətində öz əksini tapdığı qeyd edilib.

Cari ildə ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyinə hazırlıq prosesindən bəhs edən nazir Ceyhun Bayramov COP29 irsinin iqlim dəyişikliyi təhlükəsi ilə mübarizəyə töhfə olması üçün tərəfimizdən aidiyyəti tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, aparılan fəaliyyətin qarşısında dayanan ən böyük çağırışlardan biri olan mina təhdidi, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesindən ətraflı bəhs edib. Vətəndaşlarımızın təhlükəsizliyinə təhdid yaradan, eləcə də aparılan yenidənqurma işlərinə maneə törədən mina problemi ilə mübarizədə beynəlxalq ictimaiyyətin dəstəyinin əhəmiyyəti vurğulanıb. Azərbaycan-Ermənistan sülh gündəliyinin irəlilədilməsi ilə bağlı tarixi şəraitin mövcud olduğu, bu istiqamətdə yaranmış imkanlardan maksimum istifadə edilməsi üçün ölkəmiz tərəfindən davamlı səylərin göstərildiyi diqqətə çatdırılıb.

Baş katib Yens Stoltenberq Azərbaycanın NATO ilə əməkdaşlıq çərçivəsində bir çox sülhməramlı missiyalarda nümunəvi fəaliyyətinin təqdirəlayiq olması ilə yanaşı, ölkəmizin NATO bölgəsinin enerji təhlükəsizliyinə verdiyi töhfənin əhəmiyyətindən bəhs edib. Xüsusilə cari ildə ölkəmizin COP29-a sədrliyinin enerji təhlükəsizliyi və iqlim dəyişikliyi ilə mübarizə sahələri arasında sinerjiyə töhfə verəcəyinə dair inam ifadə olunub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb. ■

# Azərbaycanın müdafiə nazirinin NATO-nun Baş katibi ilə görüşü olub

**Martın 18-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Baş katibi Yens Stoltenberqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyində keçirilən rəsmi qarşılanma mərasimində Y.Stoltenberq fəxri qarovulun önündən keçib, protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Nazir 30 illik işğal və indiki dövrdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyinə görə NATO-ya təşəkkür edib.

Nümayəndə heyətinə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə uyğun olaraq Azərbaycan Ordusunda aparılan islahatlar, eləcə də azad edilən ərazilərdə görülən minatəmizləmə, bərpa-quruculuq işləri və Azərbaycan-Ermənistan şərti sərhədindəki cari vəziyyət barədə ətraflı məlumat verilib.

Müdafiə naziri NATO ilə əməkdaşlıqda əldə edilən uğurlardan danışıb, qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Y.Stoltenberq Azərbaycan Ordusunun hərbi qulluqçularının sülhməramlı missiyalarda nümayiş etdirdiyi peşəkarlığı və NATO ilə tərəfdaşlıq çərçivəsində digər sahələrdə fəaliyyətlərini yüksək qiymətləndirib. Ordumuzun Türkiyə Silahlı Qüvvələri ilə sıx əməkdaşlığının Azərbaycan-NATO münasibətlərinə də əhəmiyyətli töhfə verəcəyini xüsusi vurğulayıb.

Sonda kibertəhlükəsizlik, minatəmizləmə, eləcə də ikitərəfli hərbi əlaqələrin digər sahələrində inkişaf perspektivləri müzakirə edilib, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. ■

*Yens Stoltenberq:*

# NATO ilə Azərbaycan arasında əməkdaşlıq üçün yeni çərçivə sənədinin razılaşdırılması üzərində iş aparırıq

*Ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Baş katibi Yens Stoltenberq martın 18-də Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.*

## NATO-nun Baş katibinin AZƏRTAC-a müsahibəsi

**–Azərbaycanın Sülh Naminə Tərəfdaşlıq sənədini imzalamasının və NATO ilə məzmunlu tərəfdaşlığının əsasının qoyulmasının bu il 30 ili tamam olur. Ümumilikdə bu müddətdə tərəflər arasında əlaqələrin hazırkı səviyyəsini necə qiymətləndirərdiniz?**

–Azərbaycan NATO üçün vacib və dəyərli tərəfdaşdır. Bunun bir çox səbəbləri var. Biz bu il əməkdaşlığımızın 30 illiyini qeyd edirik. Bu illər ərzində Azərbaycan NATO-nun bir sıra missiya və əməliyyatlarında iştirak edib. Uzun illər Azərbaycan da NATO-nun Kosovo və Əfqanıstandakı missiyalarına töhfə verib. Mən Əfqanıstanda olarkən azərbaycanlı əsgərlərlə görüşmüşəm və onların peşəkarlığının və fədakarlığının şahidi olmuşam. Azərbaycan hərbçiləri xüsusilə Əfqanıstandakı missiyanın sonlarına yaxın səfirliyi və hava limanını qorumaqda böyük rol oynayıb və yüz minlərlə insanın Kabil hava limanından təxliyəsində bizə kömək göstərib. Beləliklə, ərazini ABŞ və bir sıra digərləri ilə birlikdə tərk edən son hərbçilər azərbaycanlılar olublar. Biz, həmçinin bir sıra digər sahələrdə praktiki əməkdaşlıq və siyasi dialoqu gücləndirmək sahəsində Azərbaycanın oynadığı rolu alqışlayırıq. NATO uzun illər bir sıra müxtəlif məsələlərdə Azərbaycanla əməkdaşlıq edib və hazırda biz əməkdaşlığımızı daha da inkişaf etdirməyin yolları üzərində işləyirik.

**–Son 30 ildə Azərbaycan NATO ilə regional təhlükəsizlik, müxtəlif əməliyyatlar, sülhyaratma tədbirləri və digər sahələrdə sıx əməkdaşlıq edib. Bütün bunları ümumiləşdirsək, Azərbaycanın NATO üçün önəmi nədən ibarətdir?**

–Azərbaycanla NATO arasında praktiki tərəfdaşlıq və siyasi dialoq mövcuddur. Azərbaycan həm də NATO üçün enerji təhlükəsizliyi baxımından son dərəcə əhəmiyyətli ölkədir. Xüsusilə Ukraynaya genişmiqyaslı hərbi müdaxilə edən Rusiya NATO müttəfiqlərini çəkindirmək üçün təbii qazdan alət kimi istifadə etməyə başladıqdan sonra bu, daha çox vacibdir. Azərbaycan tərəfdən artan qaz tədarükü NATO müttəfiqlərinin qaz təminatçısı kimi Rusiya asılılığından azad olmasına imkan yaradıb. Bu proses çoxsürətli oldu və çox çətin şəraitdə kifayət qədər yaxşı alındı. Azərbaycan qazının ixracının 12 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılması ilə bağlı tələbat var. Bu, Avropa qaz tələbatının vacib tərkib hissəsidir və Azərbaycandan gələn qaz bir sıra müttəfiqlər üçün çox vacibdir. Mən, həmçinin təkcə təbii qaz deyil, həmçinin elektrik kabelləri vasitəsilə enerji ixracı sahəsində atılan addımları yüksək qiymətləndirirəm. Azərbaycan tərəfindən enerjinin birbaşa ixracı gələcəkdə ölkənizin Avropa üçün enerji təminatçısı kimi rolunu artıracaq.

Bu, həmçinin Azərbaycanın külək və günəş enerjisi vasitəsilə bərpaolunan enerji mənbələrinin inkişaf etdirilməsi sahəsində göstərdiyi səylərin tərkib hissəsidir. Bununla Azərbaycan böyük enerji keçidi edə bilər. İqlim dəyişikliyi ilə mübarizə aparmaq istəyirsinizsə, bu, baş verməlidir. Bu kontekstdə COP29-un Azərbaycanda keçirilməsi çox vacibdir. Azərbaycan bu ilin noyabrında böyük iqlim konfransı olan COP29-a ev sahibliyi edəcək. Bu konfrans beynəlxalq ictimaiyyətə qlobal istiləşmə, iqlim dəyişikliyi, maliyyələşmə kimi bir sıra vacib məsələlərlə bağlı qərar vermək üçün platforma rolunu oynayacaq. Böyük enerji keçidini təmin etmək üçün böyük investisiyalar çox vacibdir.

**–Qeyd etdiyiniz kimi, Azərbaycanın NATO əməliyyatlarına dəstəyi əməkdaşlığın mühüm sahələrindən birini təşkil edib. Azərbaycan hərbçiləri Kosovo əməliyyatlarında və Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrində fəal iştirak edib, o cümlədən siyasi, hərbi, logistik, hava və yer tranziti ilə bağlı dəstək verib. Azərbaycanın bu sahədə dəstəyi barədə daha ətraflı məlumat verməyinizi xahiş edirik.**

–Azərbaycan çox yaxşı təlim keçmiş və təchiz olunmuş hərbi qüvvələrə malikdir. Onlar uzun illər Əfqanıstanda hava limanının müdafiəsində böyük rol oynayıblar. Azərbaycan hərbçiləri uzun illərdir müxtəlif tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Lakin onlar 2021-ci ildə - missiyanın son günlərində hava limanının qorunması, yüz minlərlə insanın Kabil və Əfqanıstandan təxliyə edilməsi sahəsində vacib rol oynayıblar. Hava limanında, həmçinin NATO-ya məxsus hospital fəaliyyət göstərib. Bu hospitalda hava limanındakı insanlara, o cümlədən tibbi yardımın göstərilməsi təmin olunurdu. Beləliklə, birlikdə gördüyümüz son iş Türkiyə hərbçiləri ilə yanaşı hava limanının və hospitalın qorunması olub. Ümumi desək, bütün bunlar NATO üçün son dərəcə vacibdir. Mənim NATO-nun mənzil qərargahında fəaliyyət göstərən əməkdaşlarımdan biri Kabildə hava limanından insanların təxliyəsini təşkil edirdi. O yaralanmışdı. Onun həyatını azərbaycanlı hərbçilər xilas etdilər, ilk tibbi yardım göstərərək xəstəxanaya çatdırdılar. Biz onların bu illər ərzində, xüsusilə missiyanın son həftələrində gördükləri işlərə görə minnətdarıq.

**–Regionda formalaşmış yeni reallıqlar fonunda NATO ilə Azərbaycan arasında əlaqələrin inkişafı üçün gündəlikdə duran məsələlər və fəaliyyət planı nədən ibarətdir?**

–Azərbaycanla Ermənistan arasında davamlı sülhün tənzimlənməsi bizim üçün çox vacibdir. Mən Prezident İlham Əliyevin görüşümüz, mətbuata bəyanat və şam yeməyi zamanı verdiyi mesajları alqışlayıram. Prezident İlham Əliyev aydın şəkildə bildirdi ki, biz indi sülh müqaviləsinə hər zamankından daha yaxınıq. Bir sıra həll olunmalı məsələlər hələ də qalır, lakin mən əminəm ki, Azərbaycan və Ermənistan sülh razılaşmasını imzalamaq üçün yaranmış bu imkanı görür. Regionda sülh və sabitliyin əldə olunması bölgə əhalisi üçün çox vacibdir. Bu, həmçinin investisiyanın cəlbi və rifah üçün şəraitin yaradılması baxımından çox əhəmiyyətlidir. Çünki biz bilirik ki, sülh və sabitlik iqtisadi inkişaf və dirçəliş üçün əsas şərtdir. Regionda sülh və təhlükəsizlik beynəlxalq sülh və təhlükəsizlik baxımından da vacib rola malikdir. Ona görə də davamlı sülhün əldə olunması həm də NATO müttəfiqlərinin marağındadır. Buna görə də mən qəti şəkildə inanıram ki, davamlı sülh və təhlükəsizliyin əldə olunması üçün bütün işlər görüləcək.



**–Bu il NATO üçün yeni üzvün qəbulu baxımından fəal başlayıb. Ümumilikdə NATO-nun növbəti illər üçün prioritet hədəfləri nədir? Bu hədəflərin icrasında Qafqaz regionunun rolu nədən ibarətdir?**

–Qafqazda bizim bir neçə vacib tərəfdaşlarımız var, buna görə də bu region NATO üçün çox vacibdir. NATO və Avropa İttifaqı Qafqaz ölkələri ilə əlaqələrin daha da inkişafında maraqlıdır. Təbii ki, Gürcüstan bu baxımdan fərqli mövqedədir. Belə ki, bu ölkə NATO üzvlüyünə müraciət edib. NATO bunun baş verəcəyini dəfələrlə bəyan edib.

Bununla yanaşı, Qafqaz Rusiyanın genişmiqyaslı təcavüzkar müharibə apardığı Ukraynadan o qədər də uzaq deyil. Bu da həm Avropa, həm də Qafqaz üçün vacibdir. Əgər Prezident Putin Ukraynada qalib gələrsə, bu, təkcə Ukrayna üçün faciə deyil, həm də hər kəsə, o cümlədən Azərbaycana və NATO müttəfiqlərinə təhlükə törədər. Çünki Prezident Putinə mesaj budur ki, istədiyi hər şeyi əldə etmək üçün hərbi yola əl atdıqda beynəlxalq hüququn pozulmasına və başqa ölkəyə hərbi müdaxiləyə görə cavab verməli olduğunu bilməlidir. Bu, həm də gələcəkdə gücə əl atmaq cəhdlərini azaldacaq. Ona görə də NATO müttəfiqlərinin, Azərbaycanın və dünyada bütün ölkələrin marağında olan odur ki, Prezident Putinin qalib gəlməsinin qarşısı alınsın. Mən, həmçinin Azərbaycanın Ukraynaya göndərdiyi humanitar yardımı və minaların təmizlənməsi sahəsində dəstəyini yüksək qiymətləndirirəm. Lakin düşünürəm ki, Rusiyaya qarşı iqtisadi sanksiyalara qoşulmaq da çox vacibdir. Çünki bu ölkə beynəlxalq hüququ pozmaq və başqa ölkənin ərazisinə hücum etməyin əvəzini ödəməlidir.

**–Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində müəyyən layihələr həyata keçirilib. Bu fəaliyyətlər əsasən nədən ibarətdir və hazırda bu istiqamətdə hansısa yeni addımlar nəzərdə tutulubmu?**

–NATO ilə Azərbaycan arasında əməkdaşlıq üçün yeni çərçivə sənədinin razılaşdırılması üzərində iş aparırıq. Bu çərçivə sənədi qarşılıqlı fəaliyyət məsələlərinə köklənəcək və burada əsas məqsəd Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması üçün birgə işləməkdir. Biz, həmçinin hərbi təhsil məsələlərinə də önəm veririk. Bu da tərəflər arasında qarşılıqlı fəaliyyəti inkişaf etdirəcək. Biz, eyni zamanda, əməkdaşlığımızı gələcəkdə inkişaf etdirə biləcəyimiz digər sahələri də nəzərdən keçiririk. Bütün bunlar Azərbaycan və NATO qüvvələrini bir-birinə daha da yaxınlaşdıracaq və düşünürəm bu, hər iki tərəf üçün faydalı olacaq. ■



# NATO-nun Baş katibinin Azərbaycana səfəri başa çatıb

**NATO-nun Baş katibi Yens Stoltenberqin Azərbaycan Respublikasına rəsmi səfəri martın 18-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının və hərbi ittifaqın bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş katib Yens Stoltenberqi xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar. ■



# AZƏRBAYCAN dünya mediasında

## "Anadolu Agentliyi":




### "Avropa Komissiyasının Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırması həm böyük üstünlük, həm də böyük məsuliyyətdir"

Azərbaycan NATO ilə tərəfdaşlığa sadiqdir. Bu barədə Prezident İlham Əliyev martın 17-də NATO-nun baş katibi Yens Stoltenberqlə danışıqlardan sonra bildirib.

O, Azərbaycanın müdafiə imkanlarını müasirləşdirdiyini vurğulayıb. Görüşdə, həmçinin enerji təhlükəsizliyi məsələsi müzakirə edilib:

"Bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onların 6-sı NATO-ya üzv, digər ikisi isə NATO-nun tərəfdaş ölkəsidir. Əminəm ki, qarşıdan gələn illərdə tərəfdaşlarımızın sayı artacaq. Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və ümumavropa qaz təchizatçısı adlandırır. Bu isə həm böyük üstünlük, həm də böyük məsuliyyətdir", - daha sonra ölkə başçısı deyib.

Prezident İlham Əliyev Azərbaycanın yaşıl keçid gündəliyi haqqında da məlumat verib: "Azərbaycan yekdilliklə COP29-a ev sahibliyi edəcək ölkə seçilmişdir. Bu, bizim yaşıl keçidlə bağlı səylərimizin tanınmasının göstəricisidir. Zəngin təbii ehtiyatlara, qazıntı yanacağına malik ölkə olaraq biz tərəfdaşlarımızla birlikdə bərpaolunan enerji mənbələrinə sərmayə yatırırıq".

## "Al Arabiya news":




### Azərbaycan Ermənistanla sülhə hər zamankından daha yaxındır

Prezident İlham Əliyev bəyan edib ki, onun ölkəsi Ermənistanla sülhə "həmişəkindən daha yaxındır". Bu barədə "Al Arabiya news" xəbər agentliyi məlumat yayıb.

Ötən gün Azərbaycana səfər edən NATO-nun Baş katibi Yens Stoltenberq və dövlət başçısı mətbuata birgə bəyanatla çıxış ediblər.

Prezident İlham Əliyev çıxışında deyib: "Bu günədək sülh sazişinin layihəsinə dair ermənistanlı həmkarlarla 7 dəfə şərhlərin mübadiləsi baş tutub. Xarici işlər nazirləri və sərhədlərin delimitasiyası ilə bağlı Baş nazirlərin müavinləri arasında keçirilmiş görüşlər məsələnin həlli üçün yaxşı imkanın olduğunu nümayiş etdirir. Bu yaxınlarda qeyd etdiyim kimi, biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq".

"Siz söylədiyiniz kimi, sülh sazişinə heç vaxt olmadığı qədər yaxın olmağınızla bağlı sözlərinizi yüksək qiymətləndirirəm. Mən Ermənistanla dayanıqlı sülh sazişinə nail olmaq üçün həmin fürsətdən istifadə etməyinizdə sizi dəstəkləyirəm", - deyə alyans rəsmisi bəyanatında bildirib.

## "MENAFN":




### Azərbaycan-Çin hərtərəfli əməkdaşlığının inkişaf perspektivləri müzakirə edilib

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Çinin xarici işlər nazirinin müavini Sun Veydonqla görüşüb.

"MENAFN" xəbər verir ki, Çinin xarici işlər nazirinin müavini Sun Veydonq Azərbaycan və Çin prezidentlərinin keçirdikləri görüşlərin, aparılan fikir mübadilələrinin ölkələrimiz arasında tərəfdaşlığın strateji inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm amil olduğunu vurğulayıb.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrə, COP29-la əlaqədar qarşıda duran məsələlərə, Orta Dəhliz üzrə əməkdaşlığa, Cənubi Qafqaz regionunda sülh quruculuğuna dair fikir mübadiləsi olub. Eyni zamanda Azərbaycan ilə Çin arasında hərtərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

## "Mir24.tv":




### "Əməkdaşlığın qızıl səhifəsi": Qazaxıstan və Azərbaycan daha bir Avrasiya marşrutunu işə saldı

"Mir24.tv" yazır ki, ötən həftə reallaşan görüşün kulminasiya nöqtəsi dəmir yolu marşrutunun işə salınmasıdır. Xatırladaq ki, martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Çinin Sian terminalından Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini videobağlantı ilə izləyiblər. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu (Siandakı Qazaxıstan terminalı-Aktau-Abşeron stansiyası) 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb. Azərbaycan və Qazaxıstan dəmir yolları idarələrinin birgə səyləri sayəsində 2024-cü ildə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılması planlaşdırılır. Cari ilin yanvar-fevral aylarında "Qazaxıstan Dəmir Yolları" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti arasında yükdaşımaların həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 25 faiz artaraq 539,5 min ton təşkil edib. Qeyd edək ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir.

## "Vestnik Kavkaza":




### Füzuli şəhərinə daha 120 nəfərdən çox insan yola salınıb

Ötən gün Bakının keçmiş məcburi köçkünlər üçün salınmış yaşayış kompleksində 123 nəfərdən ibarət növbəti köç karvanı Füzuliyə yola düşüb.

"Vestnik Kavkaza" bildirir ki, bununla da sözügedən şəhərdə ümumilikdə 596 ailənin (2245 nəfər) daimi məskunlaşması təmin ediləcək.

Qeyd edək ki, Füzuliyə sonuncu köç karvanı martın 15-də baş tutub. Həmin mərhələdə şəhərə daha 35 ailə - 153 nəfər köçürülüb və onlara mənzillərin açarları təqdim olunub. Ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşıblar.

"Respublika".




*Yazın gəlişi təbiətin oyanması kimi xarakterizə olunsa da bu, həm də insanın ovqatına müsbət təsir edir. Qışın nağılvari dünyasından ayrılan Adəm övladı ətraf aləmlə təmasdan zövq alır. Axı, bahar fəsli özü ilə həm də gözəllik, işıq, canlanma gətirir. Bu rəngarənglikdə xoş ovqat, əhvali-ruhiyyə yaranır. Bütün bunlardan güc alan, ilhamlanan insan ürəyinin odu, zəkasının qüvvəsi, istedadının gücü ilə təbiətdən cəmiyyətə inteqrasiya edərək möcüzələr yaradır. İnsan əməyinin möcüzələrindən biri də tikmə, toxuma sənətidir.*

# Rənglərdə gözəlləşən özbək "ilmələri" Bakıda



Qədim zamanlarda şərq xalqları və türk millətlərinin əsas məşğuliyyətindən biri hesab edilən bu yaradıcılıq sahəsi olduqca maraqlı və sirlidir. Bu işlə məşğul olan insanlarda vacib şərt yüksək təxəyyül, zövq və səbirdir. Əgər bunların hansısa mövcud deyilsə, o zaman görülən iş nə keyfiyyətli alınacaq, nə də göz oxşayacaq. Rəngli ilmələrin vəhdətində sirli aləm yaradan toxuma və tikmə sənəti türk xalqlarının əsas məşğuliyyət sahəsi olub. Uzun qış gecələrinin, qarlı, çovğunlu günlərin sevilən məşğuliyyəti olub bu sahə. İnsanlar sevgilərini, məhəbbətlərini qatdıqları bu sənətə böyük zövqlə yanaşıblar. Belə gözəl sənət əsərləri yaradan xalqlardan biri də özbəklərdir. Bu günlərdə ölkəmizə səyahət edən Özbəkistanın sənət adamları yazın gəlişini heç də təsadüfi seçməyiblər. Martın 17-də Heydər Əliyev Mərkəzində "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" adlı sərgi öz işinə başlayıb. Özbəkistan mədəniyyətinin və incəsənətinin inkişafı Fondu ilə birgə keçirilən sərgidə 148-dən çox dekorativ-tətbiqi sənət nümunəsi nümayiş etdirilir. Sərgi XIX əsrin sonu-XX əsrin əvvəlində Özbəkistanın mədəni-tarixi irsinə və milli geyimlərinə həsr olunub.

Sərgidə kişilərin milli geyiminin əsas elementi olan qızıl naxışlı çapanlar (uzun üst geyimi) bölməsi, Daşkənd, Cizax, Səmərqənd, Şəhrisəbz, Nurata və Buxara kimi şəhərlərdən əl ilə işlənmiş dekorativ tekstil nümunələri olan tikmə bölməsi, Səmərqənd, Buxara və Qaraqalpaqıstandan olan qədim ustaların gümüş, firuzə və digər qiymətli daşlardan hazırladıqları zərgərlik nümunələri bölməsi ilk növbədə XIX-XX əsr Özbəkistan sənətkarlığının inkişafını əks etdirir. Qeyd edək ki, buxaranın qızıl tikmələri hər zaman Özbəkistanda digər sənət növləri arasında xüsusi yer tutur. Yazın gəlişini bildirən Novruz bayramı ərəfəsində Heydər Əliyev Mərkəzində əlvan rəngli, bahar təravətli ekspozisiya olduqca böyük əhəmiyyət kəsb edir.





Azərbaycan və Özbəkistanın qədim köklərə malik tarixi əlaqələri çoxşaxəli xarakter daşıyır. Bu xalqların etnik köklərinin eyniliyi, ilk növbədə, çoxsaylı tarixi faktların da sübut etdiyi din birliyini şərtləndirir. Din birliyi memarlıq, ədəbiyyat və miniatür sənətinin inkişafında, ən əsası isə hər iki xalqın mentalitet və dünyagörüşünün oxşarlığında özünü büruzə verir. Azərbaycan və Özbəkistanın coğrafi mövqeyi də iki dövləti yaxınlaşdıran amillərdəndir. Bu gün iki ölkənin ictimai-siyasi və iqtisadi həyatında baş verən dəyişikliklər, böyük uğurlar qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişafına şərait yaradır. Qədim tarixə və mədəni irsə malik olan Azərbaycan və Özbəkistan xalqlarının dostluq əlaqələri gələcək münasibətlərin daha da inkişaf etməsinə zəmin yaradır. Bu baxımdan, xalqlar arasında siyasi-iqtisadi əlaqələrlə yanaşı, mədəniyyət sahəsində də görüşlər olduqca vacibdir. "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" adlı sərginin bu mənada böyük əhəmiyyəti var.

Bu sərgi ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha bir göstəricisidir. Tədbirin keçirilməsinə dəstək göstərən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva hər zaman bu xalqın mədəniyyətinə böyük maraqla yanaşmışdır. Hələ 2022-ci il noyabrın 10-da Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və digər ölkələrin birinci xanımları Səmərqənddə "Özbəkistanın rəngləri" adlı sərgidə iştirak etmişlər. Sərgidə Nukusda yerləşən İ.Savitski adına Qaraqalpaqıstan Respublikası Dövlət İncəsənət Muzeyinin kolleksiyasından məşhur əsərlər nümayiş olunmuşdu. Burada sərgilənən əsərlər Özbəkistanın XX əsr təsviri sənətinin bütün istiqamətlərini əhatə etmişdi. Bu gün isə Özbəkistan öz sənət nümunələri ilə Azərbaycana qonaq gəlib.

Onu da qeyd edək ki, sərgidən bir gün əvvəl, "Lazgi. Qəlb və sevginin rəqsi" adlı balet tamaşasının təqdimatı olub. Bu, UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil olan rəqsdir. Sərginin açılış mərasimində Özbəkistan Prezidentinin köməkçisi Saida Mirziyoyeva çıxış edərək Azərbaycanda olmaqdan və bu sərginin təşkilindən məmnunluğunu ifadə edib: "Bu gün Bakıda, Heydər Əliyev Mərkəzində "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" adlı böyük sərgi açılır. Bu sərgi təkcə dekorativ-tətbiqi sənət kolleksiyasını nümayiş etdirmir, həm də Özbəkistanın mədəni irsinin zəngin müxtəlifliyinin canlı şahidi, onun tarixi dərinliyinin və mədəni təkamülünün təcəssümüdür". Xalqlarımızı tarixdə, mədəniyyətdə və ənənələrdə çoxsaylı ortaq məqamlar birləşdirir. Bizim həm də qonaqpərvərvərlik, zəngin milli mətbəx və tikmə, ağac üzərində oyma, keramika kimi nadir xalq sənəti irsinə sahib ortaq cəhətlərimiz var".

Çıxışlardan sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Özbəkistan Prezidentinin köməkçisi Saida Mirziyoyeva Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan "Azərbaycan xalçası - ilmələrin rəqsi" və "Kukla incəsənətdə" sərgiləri ilə tanış olublar. Qeyd edək ki, xalça kolleksiyası 8 ilə ərsəyə gəlib. Qədim sənətə yeni nəfəs verən sərginin kolleksiyasındakı "Yaranış", "Şikargah", "Xan ovu", "Cəng və barış", "Bəndi-rumi", "Şəbəkəli", "Adəm və Həvva", "Ağaclı", "Narlı", "Göllü", "Ləçək-turunc", "Dörd fəsil", "Tağlı", "Cəmadət" xalçaları, "Cənnət quşları" və "Cənnət bağı" dəstxalı - gəbələri bənzərsiz sənət nümunələri böyük maraqla qarşılanıb. Kolleksiyadakı xalçaların hər biri naxışlar, ornamentlər ziyarətçilərin zövqünü oxşayır. "Kukla incəsənətdə" sərgisində isə 200-dən çox kukla nümayiş etdirilir. Ekspozisiyada sənət nümunələrinin əksəriyyəti tək nüsxədə hazırlanıb və yüksək bədii dəyərə malikdir.

Heydər Əliyev Mərkəzində təşkil edilən dost ölkənin mədəni-tarixi irsini özündə yaşadan "İlmələrdə yaşayan irs: Özbəkistan tikmələrinə səyahət" adlı sərgi iyulun 1-dək davam edəcək.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

# Qlobal iqlim dəyişmələrinin canlı aləmə təsiri və onların aradan qaldırılması yolları

*Yer kürəsində qlobal iqlim dəyişmələri son illər özünü daha qabarıq şəkildə göstərir. Xüsusilə Şimal Buzlu okeanda buzlaqların sürətlə ərimısi, planetimizin müxtəlif ərazilərində təbii şəraitin kəskin dəyişməsi, istixana effektinin yaranması, atmosferin zəhərli qazlarla çirklənməsi, ozon təbəqəsində irihəcmli dəliklərin əmələ gəlməsi, bədbəxtliklə nəticələnən sel daşqınları olması və nəhayət, ayrı-ayrı ölkələrdə meşə yanğınlarının baş verməsi qlobal iqlim dəyişmələrinin əsas səbəbidir. Ona görə də qabaqcıl və elmi cəhətdən inkişaf etmiş ölkələrin rəhbərləri, alimləri, siyasətçilər və digər sənət sahibləri qlobal istiləşməyə aydınlıq gətirmək, ona qarşı mübarizə aparmaq yollarını müəyyənləşdirmək, cəmiyyəti və ümumilikdə canlıları xilas etməyin mümkünlüyü naminə birləşməyin vacib olduğunu qəbul ediblər.*

COP29
BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

Məlumdur ki, bu ilin noyabr ayında Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçiriləcək. Dünyanın inkişaf etmiş ölkələri, əsasən də ABŞ, İngiltərə, Almaniya kimi ölkələr konfransa xüsusi maraq göstərirlər. Bu baxımdan, yaxın gələcəkdə beynəlxalq əhəmiyyət daşıyan COP29-un ölkəmizdə keçirilməsi çox qürurverici hadisədir. Tarixə düşəcək bu konfrans Azərbaycan dövləti və onun Prezidentinin dünyada qlobal məsələlərin həllində aparıcı rol oynadığını əyani surətdə göstərir.

Bu yaxınlarda Prezident İlham Əliyevin "Euronews" televiziyası müxbirinin suallarına verdiyi cavablar cəmiyyətimizin bütün təbəqələri, o cümlədən alimlərimiz tərəfindən də rəğbətlə qarşılanıb. Dövlət başçısı qeyd edir ki, qazıntı yanacağı ilə zəngin olan ölkələr "yaşıl enerji"yə keçiddə ön sıralarda olmalıdır. Biz bunu ənənəvi ehtiyatlarımızın çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik. Biz hər il bunu Bakıda görürük. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını görürük, çaylarımızda su, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz alternativ enerji ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik. Bu fikirlər cənab Prezidentin vətənin, xalqın problemlərinə daha həssaslıqla yanaşdığını təsdiq edir.

Tarixən yaşadığımız Yer planetinin iqlim qurşağı zaman-zaman dəyişib. Bu dəyişmə min, hətta milyon illərlə özünü göstərib. Onu poleontologiya elminin nəticələri də təsdiq edir. Buna bir neçə misalla aydınlıq gətirək. Məlumdur ki, onurğalıların məməlilər sinfinə aid olan mamontlar və yaxud quşlar sinfinə aid olan müasir dəvəquşukimilər tropik, subtropik və bəzi hallarda isə mülayim iqlim qurşağında yaşamağa uyğunlaşıblar. Ancaq onların qalıqları bu heyvanların yaşadığı təbii şəraitə uyğun olmayan Sibirdə və Uzaq Şərqdə, yəni soyuq iqlim qurşağında tapılıb. Bu isə o deməkdir ki, bir neçə milyon illər öncə Sibirin və Uzaq Şərqin müasir əraziləri tropik, ən pis halda isə subtropik iqlimə malik olub. Belə güman etmək olar ki, qlobal iqlim dəyişməsi prosesi çoxəsrlik bir proses olub və gələcəkdə də müşahidə olunması mümkündür.

Qlobal iqlim dəyişmələrinin canlılar aləminə, o cümlədən onurğalı heyvanların orqanizminə necə təsir etməsi məsələsinə diqqət yetirək. Təbiidir ki, illik orta temperatur 2-3 C-dərəcə artarsa, bəşəriyyəti hansı fəsadlar gözlədiyini təsəvvür etmək çətindir. O zaman çaylarda, göllərdə və ümumən sututarlarda orta temperaturun artması hesabına balıqların kürütökməsi vaxtından əvvəl baş verir, kürülərin keyfiyyət göstəriciləri aşağı düşür, mayalanma faizi azalır. Güclü iqlim dəyişmələri ali onurğalı heyvanların da orqanizminə kəskin təsir göstərir. Bu zaman yağıntıların az olması səbəbindən yaşıl ot bitkilərinin vaxtından əvvəl quruması baş verir, təbii qida çatışmazlığı üzündən heyvanların böyümə və inkişafı normal getmir. İqlim dəyişmələrinin acı fəsadları haqqında biologiya elminin təkcə zoologiya və botanika deyil, onun bütün sahələrinə, xüsusilə molekulyar biologiya və genetika sahəsinə aid çoxsaylı misallar söyləmək olar. Bəs qlobal iqlim dəyişmələrinin qarşısını necə və hansı yolla almaq mümkündür?

Məlumdur ki, Azərbaycan ərazisinin 10-12 faizi təbii meşələrlə örtülüdür və Cənubi Qafqazda ən az meşə örtüyü olan ölkələrdən biridir. Meşələr təbiətin "ağciyəri" olmaqla yanaşı, həm də istiliyin və ultrabənövşəyi şüaların udulmasında xüsusi əhəmiyyət daşıyır. Ona görə də, ilk növbədə, ölkəmizdə meşə və yaşıllıqların salınmasına diqqəti artırmaq lazımdır. Son illər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin həyata keçirdiyi meşəsalma kampaniyası təqdirəlayiqdir. Bakı-Şamaxı, Bakı-Hacıqabul magistral yollarının kənarında salınan yaşıllıq zolaqları həm qlobal istiliyin tənzimlənməsi, həm də fauna və floranın qorunması və bərpası baxımından çox faydalıdır. Bu məsələ Abşeron yarımadasında daha vacibdir. Yarımada tarixən ölkə əhalisinin geniş məskunlaşdığı, eyni zamanda neft və qazçıxarma sənayesinin inkişaf etdirildiyi ərazidir, yay aylarında isə radiasiyanın yüksəlməsilə xarakterizə olunur. Buranın iqlim şəraiti insanların sağlamlığının bərpası, müxtəlif müalicəvi dərman (zəfəran), ərzaq (tərəvəzlər, taxıl, zeytun, əncir, üzüm və s.) və ekzotik-bəzək bitkilərinin (müxtəlif sort qızılgüllər, nərgiz, qərənfil və s.) yetişdirilməsi, heyvandarlığın sənaye üsulu ilə inkişaf etdirilməsi üçün optimal şəraitə malikdir. Təəssüf ki, son illər təbiətdə baş verən dəyişmələr, xüsusən də qlobal iqlim dəyişmələri Abşeron yarımadasında da canlıların həyatına təsir edir. Yarımadada neft və qazçıxarma işlərinin intensiv aparıldığı ərazilərin torpaqları rekultivasiya olunmaqla münbitləşdirilməli və ora yarımada üçün xarakterik olan iynəyarpaqlı ağaclar əkilməli, eləcə də zeytun bağları salınmalıdır. Ümumilikdə götürdükdə yarımadada yaşıllığın, bağçılığın inkişaf etdirilməsinin qlobal iqlim dəyişilmələrinin qarşısının alımasında əhəmiyyətli rolu olar.



2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik məharəti nəticəsində 44 günlük İkinci Qarabağ müharibəsində qalib gələn ölkəmiz azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq, bərpa işləri aparır. Xüsusən Kəlbəcər, Laçın və Qubadlı rayonları ərazilərindəki dağ çayları üzərində salınan su elektrik stansiyalarında əldə olunan enerji həmin ərazilərin işıqlandırılmasına sərf olunur, təbii qazdan istifadənin azalmasını və eyni zamanda burada balıqçılığın inkişafını təmin edir. Digər tərəfdən 30 illik işğal zamanı ölkəmizin təbiəti, xüsusən fauna və florası düşmən tərəfindən terrora məruz qalıb. Oxçu çayı Ermənistanın Qafan və Kacaranın mis və molibden zavodlarının tullantıları hesabına ciddi şəkildə çirklənir, demək olar ki, balıqlar məhv olub. Kiçik Qafqazın məməlilər və ornitoloji faunası da kütləvi şəkildə qırılıb, Lacın rayonu ərazisində bitən və qiymətli ağac növü sayılan Qırmızı palıd, Zəngilan rayonu ərazisindəki Bəsitçay qoruğundakı çinarlıq meşəsi (dünyada təmiz çinarlıq meşələrindən biri idi) qırılaraq məhv edilib.

Azad olunmuş ərazilərə vətəndaşlarımızın qayıdışı artıq başlayıb və uğurla davam etdirilir. Burada insanlarımızın iş yeri ilə təmin olunmasına şərait yaradılır. Mənfur erməni vandalları tərəfindən məqsədyönlü şəkildə dağıdılan milli və mənəvi sərvətlərimizin (məktəblər, məscidlər, ölkəşünaslıq muzeyləri, şəhərlər, kəndlər, idman qurğuları və s.) bərpası, həm də əhalinin demoqrafiyasının tənzimlənməsi baxımından strateji əhəmiyyət daşıyır. Məlumdur ki, ötən əsrin 80-90-cı illərində Ermənistandan, Zəngəzurdan və Qarabağdan dədə-baba yurdlarından zorla qovulan soydaşlarımızın əksəriyyəti Abşeron yarımadasının şəhər və qəsəbələrində məskunlaşıb. Ona görə yarımada respublikanın daha çox urbanlaşan və bütün aspektlərdən ciddi yüklənən ərazisi sayılır. Burada məskunlaşan keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması Bakı, Sumqayıt, Xırdalan kimi iri şəhərlərin, eləcə də qəsəbələrin həm əhali, həm də nəqliyyat vasitələrindən (xüsusilə, minik maşınlarından) xeyli miqdarda boşalmasına səbəb olacaq. İşğal olunmuş ərazilərdə meşələrin və bağların salınmasının da istiliyin udulmasında və mikroiqlimin tənzimlənməsində şəksiz rolu olacaq. Bir məsələni də fəxrlə qeyd edək ki, azad olunmuş ərazilərdə müasir şəhər, kənd, qəsəbələrin salınması və digər bərpa-quruculuq işləri müstəqil ölkəmizin öz vəsaiti hesabına aparılır.

Azərbaycan qlobal iqlim dəyişmələrinə aid olan müxtəlif beynəlxalq qurumlara qoşularaq öhdəliklər götürməklə və ona layiqincə əməl etməklə dünya ölkələri arasında nümunəvi və ədalətli ölkə olduğunu sübut edir. Azərbaycan fevralın 28-də qlobal metan emissiyalarının azaldılması üzrə dövlətlərin könüllü olaraq öz üzərinə götürdüyü öhdəlikləri nəzərdə tutan "Qlobal Metan Vədi" təşəbbüsünə qoşulduğunu elan edib. Buna uyğun olaraq, Azərbaycanın qlobal metan emissiyalarının azaldılmasını hədəfləyən birgə beynəlxalq səylərə qoşulmağa hazır olduğu bildirilib. Metan qazının isə atmosferin ozon təbəqəsində irimiqyaslı dəliklərin əmələ gəlməsində mühüm rol oynadığı elmə çoxdan məlumdur.



**Canbaxış NƏCƏFOV,**
**Bakı Dövlət Universitetinin professoru,**
**biologiya elmləri doktoru.**

"Qlobal Metan Vədi" 2021-ci ildə Birləşmiş Krallığın Qlazqo şəhərində keçirilmiş COP26 İqlim Dəyişmələri Konfransında ABŞ və Avropa İttifaqı (Aİ) tərəfindən metan emissiyalarının azaldılması ilə bağlı qlobal öhdəlik kimi irəli sürülmüş təşəbbüsdür. "Qlobal Metan Vədi"nin məqsədi 2030-cu ilə qədər metan emissiyalarını 2020-ci illə müqayisədə ümumilikdə 30 faiz məhdudlaşdırmaqdır.

Hazırda 155 ölkə bu beynəlxalq öhdəliyə qoşulduğunu elan edib və qlobal metan çirklənməsinin təxminən yarısı bu ölkələrin payına düşür. Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını, 2000-ci ildə isə Konvensiyanın Kioto Protokolunu ratifikasiya edib, qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. 2023-cü ildə yeni öhdəlik kimi 2050-ci ilə qədər istixana effekti yaradan qaz emissiyalarının 40 faiz həcmində azaldılması hədəf götürülüb. Bununla yanaşı, 2050-ci ilədək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dekarbonizasiya zonasına çevrilməsi qarşıya məqsəd qoyulub.

Qlobal iqlim dəyişmələri ilə mübarizədə fəallığı ilə seçilən ölkəmizin "Qlobal Metan Vədi"nə qoşulması onun dünyada etibarlı "yaşıl enerji" tərəfdaşı kimi mövqeyini daha da gücləndirir. Beynəlxalq birliyin məsuliyyətli üzvü kimi Azərbaycan hər zaman qlobal iqlim siyasəti ilə bağlı dövlətlərin apardığı birgə fəaliyyətə əhəmiyyətli dəstək və töhfə verir, "yaşıl" hədəflər uğrunda daha çox səy göstərilməsini təşviq edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən elan edilmiş "Yaşıl dünya naminə həmrəylik" təşəbbüsü ölkəmizi dünyada qlobal iqlim siyasətinə böyük töhfə verən uğurlu nümunə kimi tanıdır. COP29-a ev sahibliyinin ölkəmizə həvalə edilməsi də bu fəaliyyətə verilən beynəlxalq qiymətin və göstərilən etimadın təzahürüdür.

Qeyd edək ki, Bakı Dövlət Universitetinin biologiya fakültəsinin nəzdində fəaliyyət göstərən müvafiq kafedraların əməkdaşları, o cümlədən də Zoologiya və fiziologiya kafedrasının kollektivi qlobal iqlim dəyişmələrinin heyvanlara təsirinə aid elmi tədqiqat işləri aparır və tədbirlər keçirməklə COP29-a öz töhfələrini verməyə çalışırlar. ■

## Goranboy

# Ağacəkmə aksiyası

**Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verməkdədir.**

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində məqsədyönlü işlər aparılır. Goranboy şəhərində də bu məsələlər daimi diqqət mərkəzindədir.

Goranboy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Goranboy şəhəri ərazisində, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ağacəkmə aksiyası keçirilib. Aksiyada rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, şəhid ailələri və qazilər, rayonun xidmət sahələrinin bir qrup əməkdaşları və ictimai fəallar iştirak ediblər. Havanın soyuq olmasına baxmayaraq, ağacəkmə kampaniyasında Ümummilli Liderin müdrik ideyalarına daim sədaqətli olan qazilər və ictimai fəallar xüsusi ilə fərqləniblər.

**"Respublika".**













# Günün siyasi nəbzi



# Füzuli sakinləri arzularına qovuşur

*Doğma torpağa qayıdışı fırtınalı dənizlər arasında uzun və məşəqqətli bir yol keçdikdən sonra nəhayət, tanış sahili görən dənizçinin yaşadığı hisslərə bənzətmək olar. Keçmiş məcburi köçkünlərin ürəkləri bu gün qürur və sevinc hissi ilə doludur. Bu, qayıdış tapmacanın cavabını tapmaq, çoxdan yarımçıq qalmış şəkli tamamlamaq kimidir. Bu gün Füzuli sakinləri vətən torpağında bir zaman ayrı düşmüş köhnə dostlara, qonşulara qovuşur, xatirələrini şirin qoxusunu duyur.*





Martın 18-də Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb. Bu mərhələdə daha 34 ailə - 123 nəfər köçürülüb. Ümumilikdə, indiyədək şəhərdə 596 ailənin, yəni 2245 nəfərin daimi məskunlaşması təmin edilib. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Ata-baba yurduna qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirlər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər. Qeyd edək ki, Füzuliyə bundan əvvəlki köç karvanı martın 15-də yola salınıb. Həmin mərhələdə şəhərə daha 35 ailə - 153 nəfər köçürülüb.

Otuz ildən çoxdur ki, bu günü gözləyən sakinlər arzularına qovuşur. Qabaqdan Novruz bayramı gəlir. Bu bayram isə digərlərindən fərqlənir. Çünki ilk dəfə tam suveren Azərbaycanda qeyd edilir. Artıq doğma yurda qayıdan sakinlər bayramı daha qururla, sevinclə qeyd edəcəklər. İllər boyu bu anın həsrətində olan keçmiş məcburi köçkünlər nəhayət, doğma torpağın qoynuna qayıdırlar. Doğma küçələr keçmiş günlərin, gülüşlərin, göz yaşlarının, zəfərlərin və çətinliklərin xatirələri ilə doludur. Hər küncün bir hekayəsi var və hər biri onların həyat kitabının bir fəslidir.

Azərbaycanın şanlı qələbəsilə yekunlaşan İkinci Qarabağ müharibəsi nəticəsində bu gün əzəli torpaqlarımız işğaldan azaddır. Hər birimiz qəhrəman Ordumuzla fəxr edirik. Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz xalqımızın 30 illik həsrətinə son qoyub. Bu gün məcburi köçkünlərin doğma yurda ləyaqətli qayıdışı davam edir. Torpaqlar işğaldan azad edildikdən qısa bir müddət sonra o yerlərdə irimiqyaslı bərpa-quruculuq layihələri həyata keçirilməyə başlanılıb. İşğaldan azad olunmuş ərazilərimiz minalardan və partlamamış hərbi sursatlardan təmizlənir, həmçinin müasir yaşayış, istehsal və xidmət infrastrukturu qurulur, iqtisadi fəaliyyətin və nəqliyyat-kommunikasiya xətlərinin bərpası istiqamətində əhəmiyyətli layihələr icra edilir. Ölkəmiz dayanıqlı sülhə, inkişafa əsaslanan yeni mərhələyə qədəm qoyub. Bu mərhələ rayonların sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Qeyd edək ki, Füzuli şəhəri 17 oktyabr 2020-ci ildə işğaldan azad olunub. 2020-ci ildən sonra Qarabağ və Şərqi Zəngəzurda tikinti, quruculuq, abadlıq işlərinin görülməsi əsas prioritetlərdən birinə çevrilib. İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Füzulidə də irimiqyaslı tikinti-quruculuq işləri aparılır, kəndlər, qəsəbələr yenidən qurulur, avtomobil və dəmir yolları çəkilir. Həmçinin Füzuli şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələri salınır. Ölkə başçısı İlham Əliyev tərəfindən təməli qoyulan ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər.

Bu gün məcburi köçkünlər işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərini yaxından izləyir və səbirsizliklə doğma yurdlarına qayıdacaqları günü gözləyirlər.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**

**Rusiya üçün yeni dövr başlayır. Belə ki, ötən həftə ölkədə keçirilən prezident seçkilərinin nəticələri tam olaraq yekunlaşmasa da, əksər dairələrdə olan üstünlük və yekun "exit-poll" onu göstərir ki, Vladimir Vladimiroviç Putin ardıcıl 3-cü, ümumilikdə isə 4-cü dəfə Rusiyanın prezidenti olacaq. Rusiya Mərkəzi Seçki Komissiyası prezident seçkilərində seçki bülletenlərinin 100 faizinin sayıldığını açıqlayıb. Nəticələrə görə, Vladimir Putin - 87,28, Nikolay Xaritonov - 4,31, Vladislav Davankov - 3,85, Leonid Slutskinin - 3,20 faiz səs topladığı məlum olub. Komissiya bildirib ki, martın 21-də Rusiya Federasiyasında keçirilən prezident seçkilərinin nəticələrinə rəsmi yekun vuracaq. MSK sədri Ella Pamfilovanın sözlərinə görə, seçici fəallığı müasir Rusiya tarixində rekord göstərici olub: seçki məntəqələrinə 87,1 milyondan çox rusiyalı, yəni seçicilərin 77,44 faizi gəlib.**




# Güclü və qüdrətli Rusiyanın lideri



2012-ci ildən bəri Rusiya Prezidenti Vladimir Putin ölkəsi adına bir çox mühüm qərarlar verib. V.Putinin hakimiyyətdə həm prezident, həm də baş nazir kimi olduğu illər ərzində ölkədə iqtisadi bum, hərbi genişlənmə və Rusiyanın böyük güc kimi yenidən qurulması kimi mühüm proseslər baş verib, bir çox rusiyalı üçün həyat standartları yaxşılaşıb və stabillik anlayışının yeni forması və milli qürur yaranıb. Yoxsulluq əhəmiyyətli dərəcədə azalıb. SSRİ-nin dağılmasının ardından onun siyasi varisliyini yerinə yetirməyə çalışan Rusiyaya müstəqilliyinin ilk dövrlərində Boris Yeltsin prezidentlik edib. Onun hakimiyyəti dövründə xüsusilə iqtisadi sahədə bir sıra radikal qərarlar qəbul edildi və nəticədə ölkədə qeyri-sabitlik və inflyasiya prosesi başladı. Ölkədə artan etirazlar prezidentin istefası ilə nəticələndi və bir çox rusiyalı politoloqların da sonradan adlandırdığı "Rusiyanın qızıl dövrü" başlandı.

Yeltsinin islahatları ölkəni uçuruma sürükləsə də, xalq içində böyük nüfuza sahib idi. Bu baxımdan 2000-ci ilin martında növbədənkənar prezident seçkilərində Putini özünün varisi adlandırması məsələni həll etmişdi. Həmin il siyasi olimpə addım atan keçmiş DTK işçisi Vladimir Putin öz səlahiyyətlərinin icrasına başladı. Bu vəzifəyə 2008-ci ildə Dmitri Medvedev seçilsə də, 2012-ci ildə Vladimir Putin növbəti dəfə rus xalqının etimadını qazanıb. Vladimir Putinin hakimiyyəti dövründə ölkədə yüksək iqtisadi artım müşahidə olunub, çiçəklənmə dövrünə qədəm qoyulub. Bununla yanaşı, xarici siyasətdə də qətiyyətli addımlar atılaraq Rusiyanın mövqeyi daha da möhkəmlənib.

Vladimir Putinin prezidentliyi dövründə Rusiyanın bölgədə ən yaxın tərəfdaşı isə şübhəsiz ki, Azərbaycan olub. Bu özünü bir çox sahələrdə birgə əməkdaşlıqda daha aydın nümayiş etdirir. Rusiyanın baş naziri Mixail Mişustinin martın 5-də Azərbaycana işgüzar səfəri də ölkələrimizin ticarət, iqtisadi əməkdaşlığının inkişaf etdirilməsi üçün yeni mərhələdir. Energetika, nəqliyyat, sənaye, mədəniyyət, humanitar və digər sahələrdə birgə layihələrin təşviqi prioritetdir. Azərbaycanda Vladimir Putinin dövründə Rusiya kapitalı olan 1,4 milyondan çox müəssisə fəaliyyət göstərir. Onların 300-ə yaxını 100 faiz Rusiya sərmayəsinə malikdir. 2023-cü ildə Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiyaları 295 milyon ABŞ dolları olub. V.V.Putinin bundan əvvəl son dəfə prezident seçildiyi dövrlə müqayisədə Rusiyanın ticarət dövriyyəsi ötən il 4,3 milyard ABŞ dollarından çox olub. 2023-cü ildə Azərbaycan və Rusiya arasında ümumi yükdaşımaların həcmi 87 faiz, tranzit yüklərin həcmi isə dörd dəfəyə qədər artıb.

Vladimir Putinin rəhbərliyi dövründə Rusiya Azərbaycanın şimal qonşusu olmaqla yanaşı, həm də ölkəmizdə istehsal olunan məhsullar üçün ən böyük bazar rolunu oynayır. Belə ki, xarici ticarət əlaqələrində Rusiyanın payı kifayət qədərdir. Ölkəmizlə Rusiya arasında münasibətlər siyasi sahədə də inkişaf edir. Siyasi əməkdaşlıq müharibədən sonrakı dövrdə daha da genişlənməyə başlayıb. Xüsusilə də Rusiya 2020-ci il 10 noyabr müqaviləsinin imzalanmasında mühüm rol oynayıb. Daha sonra Azərbaycan və Rusiya arasında qarşılıqlı müttəfiqlik haqqında bəyannamə ölkələrimiz arasında əlaqələrin yeni mərhələdə inkişafına təkan verib. Təbii ki, Azərbaycan üçün Rusiya olduqca əhəmiyyətli bir dövlətdir. BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Rusiya Azərbaycanla həmsərhəddir. Bu isə ölkəmizin beynəlxalq arenada haqq səsinin çatdırılmasında böyük dəstək deməkdir.

Ümumilikdə ardıcıl üçüncü dəfə Rusiyanın prezidenti vəzifəsinə seçilən Vladimir Putin bu illər ərzində dünya düzəninin formalaşmasında yaxından iştirak edib. Budəfəki seçkilərdə də qalib gələn V.Putin, heç şübhəsiz ki, dünyanın yeni düzənində əsas aktorlardan biri olacaq. Çünki güclü və qüdrətli Rusiyanın rəhbəri Vladimir Putin dünya üçün xüsusi önəm daşıyan liderlər sırasındadır.

**Tacir SADIQOV,**
**"Respublika".**

**Prezident İlham Əliyevin 2007-ci il 17 mart tarixli Sərəncamı ilə hər il martın 19-u Azərbaycan Respublikası Miqrasiya orqanları işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Ölkəmizin başçısı Dövlət Miqrasiya Xidmətinə və onun əməkdaşlarına daim diqqət və qayğı ilə yanaşır.**

# Vətəndaş məmnunluğu diqqət mərkəzindədir

Hazırda respublikamızda müasir tələblərə cavab verən xidmətin formalaşması bunun əyani sübutudur. Miqrasiya proseslərinin vahid dövlət siyasəti ilə tənzimlənməsi sahəsində kompleks tədbirlər həyata keçirilir. 2006-cı ildə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramının təsdiq edilməsi haqqında" Sərəncamın imzalanması da bu istiqamətdə atılan təqdirəlayiq addımdır. Sözügedən Dövlət Proqramında miqrasiya idarəetmə sisteminin inkişafı, proseslərin tənzimlənməsi, bu sahədə qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qanunların tətbiqinin səmərəliliyinin təmini, müasir avtomatlaşdırılmış nəzarət sisteminin yaradılması, qeyri-qanuni miqrasiyanın qarşısının alınması kimi mühüm məsələlər öz əksini tapıb. Bununla yanaşı, miqrasiya sahəsində vahid dövlət siyasətini həyata keçirən xüsusi dövlət orqanının yaradılması da obyektiv zərurət kimi meydana çıxır. Miqrasiya sahəsində dövlət siyasətini, habelə miqrasiya proseslərinin idarə edilməsində və tənzimlənməsində qanunvericiliklə müəyyənləşdirilmiş səlahiyyətləri icra edən qurum hüquq-mühafizə orqanı statusu alıb.

Qeyd edək ki, Dövlət Miqrasiya Xidmətinin strukturuna aparatla yanaşı, 8 regional miqrasiya idarəsi, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin istifadəsi üçün Bakı və Yevlaxda 2 qanunsuz miqrantların saxlanılması mərkəzi, Təlim-tədris mərkəzi və tibb müəssisəsi daxildir. Eyni zamanda Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində, həmçinin beynəlxalq hava limanlarında Dövlət Miqrasiya Xidmətinin bölmələri də fəaliyyət göstərir. Hələ 2008-ci il dekabrın 1-də Dövlət Miqrasiya Xidmətinin üç dildə fəaliyyət göstərən 919 - Çağrı Mərkəzi yaradılıb ki, bu da xidmətdən istifadə edənlərin problemlərinin daha çevik həllinə yönəlib. Tamamilə yenidən qurulan mərkəzin texniki imkanları şaxələndirilməklə beynəlxalq standartlara müvafiq olaraq təşkil olunub. 2018-ci ildə istifadəyə verilən MİGAZ mobil tətbiqi əcnəbi vətəndaşların olduğu yer üzrə qeydiyyatı, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınması, məhdudiyyətin və müraciət statusunun yoxlanılması, son qeydiyyat tarixinin öyrənilməsi üçün kalkulyator, onlayn ödəmə və növbə, "ASAN Viza" və digər istiqamətlər üzrə servis xidmətlərinə əlçatanlılığı təmin edir. Xüsusi vurğulamaq lazımdır ki, bütün "ASAN xidmət" mərkəzlərində də DMX tərəfindən əhaliyə müvafiq xidmətlər göstərilir. Ötən illər ərzində DMX-yə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən müvəqqəti qalma müddətinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınması, vətəndaşlığa qəbul, bərpa, vətəndaşlıqdan çıxma, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin alınması və müddətinin uzadılması ilə bağlı minlərlə müraciət daxil olub. Xidmət yaradıldığı gündən etibarən idarəetmənin təkmilləşdirilməsi, əməkdaşların peşə hazırlığının yüksəldilməsi, həmçinin normativ-hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində mühüm addımlar atılıb. Azərbaycanın ev sahibliyi etdiyi nüfuzlu beynəlxalq tədbirlərdə Xidməti öz üzərinə düşən vəzifələri uğurla icra edib və DMX bu gün mobil bir quruma çevrilib.

Qeyd edək ki, qurum fəaliyyətində Prezident İlham Əliyevin fərman və sərəncamlarını, tapşırıqlarını, tövsiyələrini rəhbər tutur, göstərilən yüksək diqqət və qayğının müqabilində işini ən müasir tələblərə uyğun şəkildə yerinə yetirməyə çalışır. Təsadüfi deyil ki, DMX getdikcə daha da inkişaf edir. Önəmli hadisələrdən biri də 2021-ci ildə Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin Azərbaycanda daimi nümayəndəliyinin təsis edilməsi haqqında müqavilənin imzalanması olub. Xidmətin səmərəliliyinin artırılması məqsədilə DMX əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün maarifləndirici görüşlər, müxtəlif rayon və şəhərlərdə çoxsaylı məlumatlandırma tədbirləri, səyyar xidmətlər təşkil edir. Ötən illər ərzində DMX tərəfindən e-xidmətlərin geniş tətbiqi, sayının və keyfiyyətinin artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədilə bütün elektron xidmətlər üzrə yenilənmə işləri həyata keçirilib. Əlavə olaraq, iki yeni - "Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı tərəfindən bu barədə məlumatın verilməsi" və "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi" elektron xidmətləri yaradılıb. Həmçinin Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM) ilə əməkdaşlıq şəraitində "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi reallaşdırılıb.



**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

# LƏNKƏRAN PENİTENSİAR KOMPLEKSİNƏ MEDİATUR

***Bu** il yanvar ayının 16-da Azərbaycan Prezidenti cənab İlham Əliyev Lənkərana növbəti səfəri çərçivəsində rayonda yeni inşa edilmiş müasir penitensiar kompleksdə yaradılan şəraitlə yaxından tanış oldu.*







Saxlama limiti 1300 nəfərlik olan penitensiar kompleks iki zonadan ibarətdir. İstintaq təcridxanasında barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin, cəzaçəkmə müəssisəsində isə müxtəlif cinayətlərə görə azadlıqdan məhrum edilmiş şəxslərin müxtəlif rejimlərdə saxlanılması nəzərdə tutulur. Müəssisədə əsasən cənub zonası və bu bölgəyə yaxın ərazilərdən olan məhkumlar saxlanılacaq ki, onlar öz ailələri ilə daha asan və rahat görüşə bilsinlər.

Ədliyyə Nazirliyinin təşəbbüsü ilə Penitensiar Xidmət tərəfindən beynəlxalq standartlara uyğun inşa olunmuş Lənkəran Penitensiar kompleksinə mediatur təşkil olunub. Tədbirdə Ədliyyə Nazirliyinin, Penitensiar xidmətinin məsul işçiləri, Milli Məclisin deputatları, Vəkillər Kollegiyasının, Ədliyyə Nazirliyi yanında İctimai Şuranın üzvləri, hüquq müdafiəçiləri, vətəndaş cəmiyyəti institutları və media nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları müəssisədə yaradılmış şəraitlə yaxından tanış olublar. Burada məhkumlar üçün ayrıca sanitar qovşağı, gəzinti yerləri olan kameralardan ibarət müxtəlif rejimli korpuslar inşa edilib. Müəssisənin təcridxana hissəsində müstəntiq və vəkillərin fəaliyyəti, istintaq hərəkətlərinin aparılması üçün zəruri şərait yaradılıb. Məhbusların məhkəmə iclaslarında məsafədən - videokonfrans vasitəsilə iştirakı, telefon danışıqları və video-görüşləri üçün ən yeni avadanlıqlarla təchiz olunmuş xüsusi otaqlar ayrılıb.

Saxlanılan şəxslərə yüksək keyfiyyətli tibbi xidmətin göstərilməsi məqsədilə müasir tibbi avadanlıqlarla təchiz olunmuş korpus inşa edilib. Burada kardioloq, stomatoloq, fizioterapevt, ultrasəs müayinəsi, cərrahiyə, manipulyasiya otaqları, laboratoriya, aptek, intensiv terapiya çarpayıları olan palatalar mövcuddur. Məhkum və həbs edilmiş şəxslərə psixoloji yardımın göstərilməsi üçün tibbi-sanitar hissədə zəruri şərait yaradılıb.

Kompleksdə uzunmüddətli və qısamüddətli görüş otaqlarına da baxış keçirilib. Uzunmüddətli görüş otaqları studio-mənzil tipli olmaqla zəruri məişət avadanlıqları ilə təchiz olunub. Məhkumların öz ailələri ilə rahat vaxt keçirmələri üçün yaradılan şərait onların həm də sosial adaptasiyasına xidmət edir.

Mediaturun iştirakçıları məhkumların asudə vaxtlarının səmərəli təşkili məqsədilə idman zalı və idman meydançaları ilə tanış olublar. Məhkumların təhsili və peşələrə yiyələnmələri üçün istehsalat sahəsində yaradılan infrastruktur maraq doğurub.

Kompleksdə məhbusların keyfiyyətli qidalanması üçün müasir avadanlıqlarla təchiz edilmiş mətbəx, yeməkxana fəaliyyət göstərir. Sənaye tipli qurğularla təchiz edilmiş camaşırxanada normal şərait yaradılıb.

Mühafizəni təmin edən əsgərlər üçün yataqxana, təlim otaqları, kinoloji mərkəz, avtopark inşa olunub.

Respublikada ilk dəfə olaraq penitensiar kompleksdə "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) Xidmət platforması yaradılıb. Ədliyyə Nazirliyinin innovativ məhsulu olan "ƏN TEZ" Xidməti əmək, maliyyə və digər resurslara qənaət etməklə istənilən yerdə virtual platforma əsasında vətəndaşlara nazirliyə videozəng vasitəsilə müraciət edərək məsafədən müxtəlif ədliyyə xidmətlərindən (notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəməyə müraciət və məhkəmə qərarlarının icrası və s.) eyni vaxtda yararlanmaq imkanı verir. Həmçinin əhaliyə xidmət sahəsində ölkədə ilk dəfə bu platformada tətbiq edilən "süni intellekt" insanın davranışını vizuallaşdıraraq xidmət üçün müraciət etmiş şəxslə ünsiyyət qurur, istəyinə uyğun sənədlərin hazırlanmasını və təqdim olunmasını təmin edir.

Kompleksin yerləşdiyi ərazidə əməkdaşlar üçün altımərtəbəli 30 mənzilli yaşayış binası inşa edilib. Mənzillər 2 və 3 otaqdan ibarətdir. Otaqlar tam təmirlidir, mebel və məişət avadanlıqları ilə təmin edilib.

Tanışlıqdan sonra media nümayəndələrinin iştirakı ilə brifinq keçirilib. Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin rəis müavini, ədliyyə general-mayoru Oqtay Məmmədov jurnalistlərə müsahibə verərək bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlar nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir. Ədliyyə sisteminin müasirləşdirilməsi ilə bağlı aparılan islahatlar çərçivəsində penitensiar xidmətin fəaliyyəti təkmilləşdirilir, cəza siyasəti humanistləşdirilir, islah prosesi zamanı yeniliklərin tətbiqi, məhkumların hüquqlarının qorunması, onların saxlanma şəraitinin, tibbi və digər təminatlarının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, millət vəkili Zahid Oruc Ədliyyə Nazirliyinin təşəbbüsü ilə keçirilən mediaturu yüksək dəyərləndirib. Qeyd edib ki, cəzaçəkmə müəssisələrində mövcud durum, məhkumların qidalanması, rejimin vəziyyəti, məhkumlara münasibət həmişə aktuallıq kəsb edib. Eyni zamanda bu məsələlərə media məkanında həssas yanaşma mövcuddur.

Cəzaçəkmə müəssisələrində mövcud durum daim diqqət mərkəzindədir, - deyə deputat Zahid Oruc bildirib. Bəzi müəssisələrdə məhkumların sayı və sıxlığı narahatlıq doğurur. Bu baxımdan yeni, müasir cəzaçəkmə müəssisələrinin tikilib istifadəyə verilməsi xüsusi önəm daşıyır. Lənkəranda beynəlxalq standartlara uyğun inşa edilmiş kompleksdə müasir texnologiyalar, elektron xidmətlər geniş tətbiq olunur.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**





## HADİSƏLƏR KONTEKSTİNDƏ






# Cənubi Qafqazın təhlükəsizlik adası

(əvvəli 1-ci səhifədə)

Ərazisində terror təhlükəsi ən yüksək olan ölkələr arasında ilk sıralarda Burkina Faso, İsrail, Mali, Pakistan, Suriya, Əfqanıstan yer tutur. Sözügedən siyahıda İran 26-cı, ABŞ 30-cu, Rusiya 35-ci, Fransa 38-ci, Ermənistan isə 76-cı yerdədir. Terrorçuluqla mübarizə, bu kimi halların araşdırılmasının effektivliyi və digər çoxsaylı göstəricilər üzrə aparılan mürəkkəb hesablamalara əsasən, Azərbaycan dünyanın ən yüksək antiterror reytinqində yer alıb. Ölkəmiz "0" indekslə Danimarka, Finlandiya, Qətərlə birgə sonuncu, yəni 89-cu yerdə qərarlaşıb. Bununla da ölkəmizin qlobal miqyasda terrorla bağlı ən təhlükəsiz yer olduğu təsdiqlənib. Əslində, bu reallıq daha öncə də etiraf edilmişdi. Belə ki, Avropa Şurasının Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) ötən ay açıqlanan hesabatında bildirilmişdi ki, rəsmi Bakı terrorçuluğun maliyyələşdirilməsinə qarşı effektiv mübarizə aparır. Qeyd olunmuşdu ki, Azərbaycan müvafiq sahədə düzgün əlaqələndirmə və aparılan islahatlar nəticəsində bu ağır prosesdən uğurla keçərək beynəlxalq tələblərə əhəmiyyətli dərəcədə cavab verən ölkələr sırasındadır. Bu isə hökumətimizin apardığı islahatların, eləcə də ölkədə şəffaf maliyyə sisteminin qurulmasının, cinayətkarlıq səviyyəsinin minimuma endirilməsinin nəticəsidir.

Qeyd etmək lazımdır ki, 2023-cü ildə ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı təsdiqlənib. Bu, məhkəmə və təhlükəsizlik orqanlarının, habelə özəl sektorun sözügedən sahədə qarşılıqlı fəaliyyətini asanlaşdırır. Məhz bunun nəticəsidir ki, ötən ay Hərbi Prokurorluqda qeydə alınmış cinayətlərin 100 faizinin üstü açılıb. Qurumun mətbuat xidmətinin rəhbəri Firad Əliyev deyib ki, görülmüş işlərin, o cümlədən Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin, həmçinin birgə həyata keçirilmiş tədbirlərin nəticəsində ötən ilin yanvar ayı ilə müqayisədə 2024-cü ilin eyni dövründə qeydə alınmış cinayətlər ümumilikdə 33,8 faiz azalıb. Hazırlanan plan bu göstəricinin daha da aşağı düşməsinə, eləcə də ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə imkanlarının məhdudlaşdırılmasına əlverişli şərait yaradacaq.

Ümumilikdə, ölkəmiz terrorizmlə mübarizədə hər zaman qəti mövqedə dayanıb. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra problemin həllinə diqqət artırılıb, dövlətimizin bu sahədəki səyləri beynəlxalq miqyas alıb. Azərbaycan İraq, Əfqanıstan və Kosovoda beynəlxalq sülhyaratma əməliyyatlarına dəstək verib, həmin coğrafiyalarda sabitliyin bərpasında səylərini əsirgəməyib. Bütün bunlar isə ondan irəli gəlir ki, Azərbaycanın özü də dünyada işğaldan, terrorizmdən ən çox əziyyət çəkən ölkələrdən biridir. Belə ki, 1980-ci illərin sonlarından etibarən ölkəmizin ərazi bütövlüyünə qarşı hərbi güc tətbiq edən Ermənistan dəfələrlə terror aktları törədib. 1994-cü il martın 19-da və iyulun 3-də Bakı metropolitenində dəhşətli terror hadisələri baş verib. 44 günlük Vətən müharibəsi dövründə isə Ermənistan tərəfindən Silahlı Qüvvələrimizə qarşı muzdlular və əcnəbi terrorçu döyüşçülərdən istifadə edilib. Ümumiyyətlə, torpaqlarımızın Ermənistan tərəfindən 30 il davam edən işğalı nəticəsində Qarabağ və Şərqi Zəngəzurda çox sayda mina basdırılıb. Eyni zamanda həmin ərazidə ötən ilədək terror yuvası fəaliyyət göstərirdi. 23 saatlıq antiterror tədbirlərindən sonra isə bölgədə terrorçuluğun kökü kəsilib. Həmçinin separatçıların vaxtilə nəzarət etdikləri ərazilərdə xarici ölkə vətəndaşları tərəfindən terrorçuluğun maliyyələşdirilməsi üçün qeyri-leqal vəsaitlərin göndərilməsinin, təbii sərvətlərin qeyri-qanuni istismarının qarşısını alınıb.

Bunların fonunda ölkəmizin beynəlxalq standartları dəstəkləmək, hüquqi və institusional çərçivələrini gücləndirmək səyləri onun qlobal təhlükəsizliyi və sabitliyi qorumaq əzmini bir daha təsdiqləyir. Beynəlxalq təşkilatların hesabatları da göstərir ki, mürəkkəb geosiyasi məkanda yerləşməsinə baxmayaraq həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində nail olunmuş sabitlik və əmin-amanlıq, o cümlədən terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə istiqamətində son illər qətiyyətlə aparılan mübarizə Azərbaycana beynəlxalq aləmdə sərmayələr və turizm üçün cəlbedici ölkə, həmçinin etibarlı tərəfdaş imici qazandırıb. Bu gün Bakıya səfər edən xarici ölkə vətəndaşları özlərini burada olduqca rahat hiss edirlər. Əcnəbilər ölkəmizdə hər hansı bir təhlükə ilə üzləşmirlər. Ölkə vətəndaşları kimi onların da təhlükəsizliyi hüquq-mühafizə orqanlarının peşəkar əməkdaşları tərəfindən yüksək səviyyədə qorunur. Eyni zamanda dövlətimiz mütəmadi olaraq beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. Azərbaycan sivilizasiyalar, mədəniyyətlər arasında dialoq məkanı, idman ölkəsi, digər beynəlxalq əhəmiyyətli məsələlərin müzakirə olunduğu, həllini tapdığı unikal platformaya çevrilir. Bunun da kökündə daxili sabitlik, təhlükəsizlik amili dayanır. Milli təhlükəsizlik siyasətinin bütün istiqamətləri üzrə - xarici siyasət, hərbi, ictimai, iqtisadi, sosial, ekoloji, informasiya, milli, dini və digər sferalarda vəzifələrin tam yerinə yetirilməsi dövlətimizin və cəmiyyətimizin mümkün təhdidlərdən etibarlı müdafiəsini təmin edir. Ona görə də bu gün Azərbaycan regionda sabitlik və təhlükəsizlik adası kimi tanınır. Bu fikri Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına müraciətində də səsləndirib: "İndi dünyanın hər bir yerində müharibələr, toqquşmalar, qarşıdurmalar hökm sürür, hər gün biz bunu görürük. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Bu da böyük sərvətdir və Azərbaycan xalqı bunu yaxşı bilir. Çünki biz müstəqilliyimizin ilk illərində çətin günlər yaşamışdıq".

Bu gün bütün azərbaycanlılar qürur hissi ilə qeyd edir ki, biz sözün əsl mənasında müstəqil ölkədə, təhlükəsiz dövlətdə yaşayırıq.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**













# Dünyanı narahat edən məsələlər ölkəmizdə müzakirə olunur

(əvvəli 1-ci səhifədə)

Təhlükəsizlik və sülhün təmin olunması üçün perspektivlər, parçalanmış dünyada dayanıqlılığın qurulması kimi məsələlər də Forumda diqqətdən kənarda qalmayıb. Habelə Forumda dünyanı sarsıdan münaqişələr, meqatəhdidlər, o cümlədən iqlim, qida və nüvə təhlükəsizliyi problemlərinin həll olunması istiqamətində və digər məsələlər müzakirə olunub.

XI Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında Azərbaycan Prezidenti bunu bir daha vurğulayıb ki, Qlobal Bakı Forumu aparıcı beynəlxalq konfranslardan birinə çevrilib. Bu mötəbər toplantı Davosda keçirilən Dünya İqtisadi Forumu və Münxen Təhlükəsizlik Konfransı qədər vacibdir.

Artıq uzun müddətdir ki, ölkəmiz dünyada gedən geopolitik proseslərin müzakirə olunduğu ciddi bir beynəlxalq mərkəzə çevrilib. XI Qlobal Bakı Forumunda iştirak edənlərin say tərkibinə nəzər yetirdikdə respublikamızın beynəlxalq birlik tərəfindən dəstəkləndiyini əminliklə söyləmək olar. Həmçinin burada iştirak edən ekspertlər Bakı Forumunun əhəmiyyətinin qlobal xarakter daşıdığını bildirdilər.

**Siyasi şərhçi Fuad Çıraqov** Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzundan, son günlərdə ard-arda paytaxtımızda keçirilən tədbirlərin əhəmiyyətindən danışıb: "Son zamanlar Azərbaycan beynəlxalq münasibətlər sisteminin ən mühüm oyunçularından birinə çevrilmişdir. Ölkəmiz buna Vətən müharibəsində əldə etdiyi şanlı qələbədən sonra regionda yaratdığı yeni geosiyasi reallıqla, artan strateji əhəmiyyəti və daha sonra yeritdiyi fəal, çevik, milli maraqlara əsaslanan hücum diplomatiyası ilə nail olmuşdur. Dövlətimiz çevik siyasəti ilə həm regionda bəzi ölkələrin destruktiv fəaliyyətini neytrallaşdıra bilir, həm də Fransa kimi ölkələrə nəinki regionda, hətta qlobal miqyasda müxtəlif platformalarda cavab verir, rəsmi Parisin Azərbaycana qarşı mənfi təşəbbüslərini və fəaliyyətini heçə endirərək, beynəlxalq miqyasda bu ölkənin cinayətlərini ifşa edir. Prezident İlham Əliyev andiçmə mərasimində Ermənistanla münaqişənin Azərbaycan üçün artıq keçmişdə qaldığına görə daha qlobal mövzularda və dünyanı narahat edən məsələlərdə ölkəmizin fəal iştirak edəcəyini bildirmişdi. COP29 tədbiri respublikamızın beynəlxalq məsələlərdə daha fəal iştirakının təkcə bir istiqamətidir.

Ölkəmiz ən müxtəlif mövzular üzrə beynəlxalq münasibətlərin dialoq platformasına, Qərb ölkələri tərəfindən səs hüququndan məhrum edilən üçüncü dünya ölkələri adlandırılan xalqların, siyasətçilərin və intellektualların tribunasına çevrilir. Buna misal olaraq, son həftələrdə digər beynəlxalq əhəmiyyətli tədbirlərlə və görüşlərlə yanaşı, keçirilən iki tədbiri göstərmək olar: "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə"yə həsr edilmiş beynəlxalq elmi konfrans və Qlobal Bakı forumu. Bu iki tədbir, eləcə də Azərbaycanın son illərdə beynəlxalq əhəmiyyətli digər təşəbbüslər ölkəmizin ümumbəşəri dəyərlər üçün atdığı addımlara nümunədir. Qalib ölkə bu təşəbbüsləri təkcə Qoşulmama Hərəkatının sədri olduğu dövrdə vaksin milliyyətçiliyinə qarşı həyata keçirdiyi beynəlxalq təşəbbüslərlə deyil, digər mövzularda da bəşəriyyəti narahat edən məsələlərə qoyduğu prinsipial mövqe ilə də ortaya qoymuşdur".

**Musa BAĞIRLI,**
**"Respublika".**

# Biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq

*Azərbaycana rəsmi səfərə gələn NATO-nun Baş katibi Yens Stoltenberq martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə mətbuata bəyanatla çıxış ediblər. Bir çox məqamlara toxunan ölkə başçımız çıxışında Ermənistanla sülh prosesinin həlledici mərhələdə olduğunu vurğulayaraq bildirib. "Bu günədək sülh sazişinin layihəsinə dair ermənistanlı həmkarlarla 7 dəfə şərhlərin mübadiləsi baş tutub. Xarici işlər nazirləri və sərhədlərin delimitasiyası ilə bağlı Baş nazirlərin müavinləri arasında keçirilmiş görüşlər məsələnin həlli üçün yaxşı imkanın olduğunu nümayiş etdirir. Bu yaxınlarda qeyd etdiyim kimi, biz sülhə heç vaxt olmadığımız qədər yaxınıq".*



Azərbaycan sülh müqaviləsinin imzalanmasına hazırdır və Prezident İlham Əliyev bütün çıxışlarında bu məsələni dəfələrlə vurğulayır. Sülh müqaviləsi hər iki xalq arasında münasibətləri yoluna qoyaraq, onlara bir coğrafiyada yaşamaq şansını yaradacaq. Azərbaycanın sülh üçün konkret təklifləri var. Biz birmənalı sülh istəyirik və bunu hər kəs görür. Sülh ən çox erməni xalqının rifahı üçün vacibdir. Belə ki, Qarabağ bölgəsində doğulub və burada yaşayan ermənilər sülh əldə edildiyi və Azərbaycan vətəndaşlığını aldıqları təqdirdə tam təhlükəsiz, digər vətəndaşlarla bərabərhüquqlu yaşayacaqlar.

Dünyanın müxtəlif yerlərində olduğu kimi, Cənubi Qafqazda da sülhün bərqərar edilməsini istəməyən, hətta bu prosesi açıq şəkildə əngəlləyən siyasi dairələr Ermənistanı çaşbaş salıblar. Bu ölkə öz gələcəyini milli maraqlarına əsasən deyil, Qərbin ambisiyaları üzərində qurmağa cəhd edir. Qərbin bu niyyətinin reallaşmasına zəmin yaradan Ermənistan isə görünür ki, öz halından məmnundur. Əks təqdirdə, heç bir ölkə yüzlərlə kilometr uzaqlıqdakı dövlətin forpostu olmaq istəməz.

Vaşinqtonda, Brüsseldə, Berlində, Tbilisidə, Moskvada, bir sözlə, bütün platformalarda sülh sazişini müzakirə etməyə və imzalamağa hazır olan Azərbaycan eyni zamanda 3+3 formatını da qəbul edir. Lakin Ermənistan Qərbi özünə dayaq bilir və yalnız Qərb platformalarında görüşü dəstəkləyir. Hazırda sülhə mane olan əsas səbəb Ermənistanın tutduğu mövqedir.

Bir sözlə, sülh prosesi ilə bağlı Azərbaycanın mövqeyi bəlli və şəffafdır. Ermənistan ilə Azərbaycan arasında baş tutan son görüşlərdə əldə edilmiş müsbət impulsun davam etdirilməsi üçün hər bir şərait və zəmin mövcuddur. Ən əsası isə bütün addımlarında və təkliflərində beynəlxalq hüquqa əsaslanan rəsmi Bakının yaratdığı haqq-ədalət mənzərəsi ortadadır.

Ermənistan hakimiyyəti unutmamalıdır ki, sülh sazişi ən çox onlara lazımdır. Azərbaycan nüfuzlu ölkə kimi bir çox beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. Öz reytinqini yüksəltməyə davam edən ölkəmiz sülh və sabitliyi təmin etməyə çalışır. Ermənistan da bu istiqamətdə atılan addımlara qoşulmalıdır. Əks təqdirdə, düşmən ölkə elə küncə sıxılmış vəziyyətdə qalacaq, dalan bir ölkəyə çevriləcək.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

## RƏYLƏR, MÜLAHİZƏLƏR

# Sülh və tərəfdaşlıq məkanı

**NATO-nun baş katibi Yens Stoltenberqin Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşdə ikitərəfli və çoxtərəfli münasibətlərin geniş spektrinə dair məsələləri müzakirə ediblər. Ölkə başçımız bildirib ki, bu gün Azərbaycan-NATO münasibətləri qarşılıqlı faydalı əməkdaşlıq xarakterindədir və biz NATO ilə birlikdə beynəlxalq sülhün və təhlükəsizliyin təminatı prosesinə ciddi töhfələr veririk.**



**Elman NƏSİROV,**
**Milli Məclisin deputatı.**

Ölkəmiz NATO-nun bir çox mühüm proqramlarında iştirak edir və təşkilatın regional və beynəlxalq sülhün, təhlükəsizliyin qorunması sahəsindəki baxışları, mövqeyi Azərbaycanın təhlükəsizliyə töhfə vermək niyyəti ilə üst-üstə düşür. Biz bu sahədə konkret əməli addımlara imza atmışıq. Cənab Prezident xüsusilə vurğuladı ki, bizim sülhməramlılar Əfqanıstanda hava limanının mühafizəsini həyata keçirirdilər və həmin münaqişə bölgəsini son tərk edən dövlətlərdən biri də məhz Azərbaycan olmuşdur. Yeri gəlmişkən, NATO-nun baş katibi də öz çıxışında açıqladı ki, bəli, Azərbaycan bu gün dünyada sülhün, təhlükəsizliyin təminatı prosesinə ciddi töhfələr verir. Bu kontekstdə Azərbaycanın Rusiya-Ukrayna müharibəsində tutduğu mövqeni təqdir, müdafiə etmiş və bildirmişdir ki, Azərbaycan Ukraynaya humanitar sahədə mühüm dəstək verir və bunu rəsmi Brüssel yüksək qiymətləndirir. Eyni zamanda NATO rəhbəri Azərbaycan ilə təşkilatın bir çox ölkələri arasında enerji təhlükəsizliyi sahəsində sıx əməkdaşlığın olduğu faktını xüsusi vurğulamış və qeyd etmişdir ki, bu təkcə ənənəvi deyil, eyni zamanda qeyri-ənənəvi, yəni bərpaolunan enerji sahələrini özündə ehtiva edir.

Bu gün Azərbaycan külək, günəş və su elektrik stansiyalarını işə salmaqla, eyni zamanda Avropanın bərpaolunan enerji ilə təminatı prosesində də mühüm rol oynamaq niyyətini ortaya qoyub və bu istiqamətdə ardıcıl addımlar atılır.

Bu səfər bir daha onu göstərdi ki, Azərbaycan bu gün Qoşulmama Hərəkatının üzvü olsa da, NATO-ya daxil olmaq hədəfini seçməsə də, müxtəlif məsələlərdə, xüsusilə beynəlxalq təhlükəsizliyin təminatı prosesində təşkilata üzv olan və olmayan ölkələrlə sıx əməkdaşlıq edir. Çünki söhbət qlobal təhlükəsizliyin təminatından gedir və Azərbaycanın bu prosesə töhfəsi NATO rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilib.

Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətə çox böyük diqqət var. Bu siyasət təqdir və müdafiə olunur. Cənab Prezidentin də bildirdiyi kimi, biz 44 günlük İkinci Qarabağ müharibəsində tarixi zəfərə imza atmışıq, ərazi bütövlüyümüzü təmin etmişik. Eyni zamanda 19-20 sentyabr tarixlərində keçirilən antiterror tədbirlərində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam, qəti, əbədi təmin edilib. Bununla da biz bütün addımlarımızda, beynəlxalq hüququn norma və prinsiplərinə əməl etməklə strateji hədəfimizə çatmışıq və indi sülh prosesinə sadiqik. Biz sülhə yaxınıq. NATO-nun da bu istiqamətdə prosesə dəstək verməsi, sülh prosesinin daha da intensivləşdirilməsində və məntiqi sonluğa çatmasında rəsmi Brüsselin də dəstək göstərməsini biz alqışlayırıq. ■

# Azərbaycanla Gürcüstan arasında münasibətlər yeni keyfiyyət çalarları ilə genişlənir

**Azərbaycanla Gürcüstan arasında münasibətlər daim yüksək səviyyədə olub, əlaqələr bütün sahələri əhatə etməklə dinamik inkişaf edib. Və bu əlaqələr dərin köklərə malikdir, xalqlarımız tarixən mehriban və dostluq şəraitində yaşayıblar. Bu gün isə mehriban qonşu və dost olan bu iki dövlət, eyni zamanda strateji tərəfdaşdırlar. Əminliklə ifadə etmək olar ki, əlaqələrimiz bütün qonşu dövlətlər üçün böyük nümunə təşkil edəcək səviyyədədir.**



**Səttar MÖHBALIYEV,**
**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,**
**Milli Məclisin deputatı.**

Əhəmiyyətli coğrafi ərazidə yerləşən dövlətlərimiz bu imkandan səmərəli istifadə etməklə ümumilikdə regionun hərtərəfli inkişafı üçün uğurlu layihələr icra edirlər. İrimiqyaslı qlobal enerji, həmçinin nəqliyyat-kommunikasiya layihələrini buna misal göstərə bilərik. Gürcüstanın tranzit imkanları Azərbaycanın enerji resurslarının, eləcə də başqa yüklərin daşınması üçün son dərəcə əhəmiyyətlidir. Ötən illərin təcrübəsi və bu istiqamətdə görülmüş işlər bunu bir daha sübut edir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və s. layihələr regionda sülh və sabitliyə, bölgə ölkələri arasında dostluq münasibətlərinin dərinləşməsinə və iqtisadi tərəqqiyə böyük imkanlar açıb.

Gürcüstanın baş naziri İrakli Kobaxidzenin vəzifəsinin icrasına başlayandan dərhal sonra ölkəmizə səfərə gəlməsi ənənəyə sadiq qalaraq Azərbaycanla münasibətlərə verilən önəmin nümunəsidir. Bu səfər təbii ki, əlaqələrimizin bundan sonra da inkişafına, xüsusi əhəmiyyət daşıyan və qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın dərinləşməsinə mühüm təsir göstərəcək, eləcə də iqtisadi maraqların uzlaşdırılması, ölkələrimiz arasında iqtisadi-siyasi əlaqələr sisteminin təkmilləşdirilməsi baxımından faydalı olacaq. Mətbuata bəyanatla çıxışı zamanı dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycanla Gürcüstanın "yaşıl enerji" sahəsində yeni layihələr üzərində iş apardıqlarını qeyd etdi. Biz inanırıq ki, bu sahədə böyük potensiala malik hər iki ölkə faydalı əməkdaşlıq edəcək, birgə layihələri uğurla həyata keçirəcək, yeni çağırışlar aspektində əməkdaşlıq möhkəmlənəcək. ■



# TORPAQ ÇƏRŞƏNBƏSİ

**Çərşənbələrin dördüncüsü Torpaq çərşənbəsidir. Ona xalq arasında "İlaxır çərşənbə", "Zında çərşənbə", "Yer çərşənbəsi", "Xak çərşənbə" də deyirlər. Əvvəlki həftələrdə oyanmış stixiyalar - su, od və yelin birgə səyi ilə torpaq da cana gəlir, yuxusundan ayılır. Donu açılır, hərarəti elə bir dərəcəyə çatır ki, artıq onu şumlamaq, toxum səpmək mümkün olur. İnsanlar üçün yeni əmək mövsümünün başlanması çox vacib bir hadisə idi. Çünki insanın həyatı, güzəranı, rifahı torpaqdan asılıdır. Torpaq həm də vətən anlayışının sinonimidir. Abbas Səhhətin dediyi kimi:**

**Vətən əcdadımızın mədfənidir,**
**Vətən övladımızın məskənidir.**

Əsrlərin sınağından çıxmış atalar sözləri əcdadlarımızın torpağa münasibətini özündə əks etdirmişdir: "Torpaqdan pay olmaz", "Torpağa əyilən namərdə əyilməz", "Torpaq deyər: "Öldür məni, dirildim səni", "Torpaq deyər: "Sən mənə tər ver, mən sənə zər verim", "Torpağın qarası üz ağardar".

Mifoloji mətnlərdə torpağın qadın kimi təsəvvür edildiyini görürük. Ona "Ana Torpaq" deyilir. Bu da ilk növbədə, torpağın törətmək, çoxaltmaq qabiliyyəti ilə bağlıdır. Qədimdə həmin təsəvvürlərin nəticəsi olaraq müəyyən mərasimlər keçirilmişdir. Onlardan biri Səməni büsatıdır. Bildiyimiz kimi, səməni təbiətin, yaşıllığın rəmzidir. İnsanlar torpağı şumlayıb becərməzdən əvvəl onun artıq məhsul vermiş kiçik modelini evdə cücərdir, həftələrlə qayğısını çəkirdilər. Hətta səməninin bitməsindən asılı olaraq gələcək məhsulun necə olacağı haqqında fikir yürüdürdülər. Seyrək, əyri-üyrü bitən səməni məhsulun kasad, qıt, sıx bitmiş, düz, rəvan cücərmiş səməni isə nemətin bol olacağından xəbər verir. Mübarək torpaq çərşənbəsi axşamı hər ailədə "səməni mayası" hazırlayardılar. Bunun üçün səməni hələ göyərməmiş onun təzə cücərtilərini doğrayıb əzər, səməni həlimi düzəldərdilər. Sonra bütün məhəllə və ya kənd sakinləri təmiz çəmənlik və ya açıq tarlada onu bişirərdilər. Bu şənlik axşam başlayıb, sübhədək davam edərdi. Səməni mayasını səhər tezdən yeyirdilər. Onu həyatverici, ömür-gün uzadan, min bir dərdin dərmanı olan məcun, Ana Torpağın döş südü hesab edirdilər. Səməni mayasına müxtəlif ədviyyatlar və qoz tökməklə ondan halva da bişirərdilər.

Torpağın qadın, ana kimi təsəvvür edildiyini göstərən digər mərasim "Cütçü şumu" dur. Onun əsas qəhrəmanı olan Cütçü babanı uzaq keçmişdə Gülbaba, Turab baba, Dehqan baba çağırmışlar. O, insanlara ilk dəfə taxıl əkib-biçməyi öyrətmiş, cütçü, pir, övliya tək təsəvvür edilmişdi. Cütçü baba rolu üçün kəndin ən nüfuzlu, namuslu, uzunömürlü, nəvə-nəticə görmüş əkinçi el ağsaqqalı seçilirdi. Bəzən də kəndin ötən il bol məhsul götürmüş varlı sakini "hampa" bu rolu ifa edirdi. Mərasimi əvvəllər çox taxıl əkilən sahədə keçirsələr də, sonradan onu kotan üzü görməmiş, bu il əkiləcək xam torpaqda təşkil edirdilər. Çərşənbə gününün səhəri həmin yerə digöv adlanan, bir dənə də mismar vurulmadan kütöv iydə və ya ərik ağacından yonulan ibtidai bir kotan aparıb gün altında qızmağa qoyurdular. Onu güzgü qırıntıları, həmişəyaşıl bitki yarpaqları, qırmızı parça zolaqları ilə bəzəyib "Cüt gözəlləməsi" adlı bir hava səsləndirərdilər. Meydana bir cüt pak, seçmə ağ öküz gətirərdilər. Boyun-boğazı, buynuzları piylənmiş, zınqırovlar və qırmızı parçalarla bəzədilmiş öküzləri kotana qoşardılar. Əynində xəzi çölə çevrilmiş qoyun dərisindən gödək bir kürk, başında isə 7 qoyun dərisindən tikilmiş bir börk olardı. Cütçü baba əlindəki nazik zoğal çubuğunu öküzlər üzərində yelləyər, o biri əli ilə kotanın dəstəyindən yapışıb çalınan musiqi sədaları altında üzü günəşə doğru yeriyər, "ho-ho" deyərək şuma başlayardı. Ətrafdakı insanlar "Allah qəbul eləsin", "Bərəkəti bol olsun" deyib dua oxuyardılar. Cütçü baba 2-3 şırım açmaqla torpaqdan 1 ovuc götürüb öpər, gözləri üstünə qoyub: "xoş gəlib, səfa gətiribsən" deyərdi. İştirakçılar bu hərəkəti təkrar edərdilər. Sonra anasının ilki olan bir qız uşağı bir cüt nar gətirər, baba narları bölüb, dənələrini torpağa səpərək deyərdi: "Şumunuz bərəkətli olsun". Yaxud, Cütçü babaya arasında taxıl olan bir süfrə verərdilər. Cütçü baba taxılı ovuclayaraq yenicə açılmış şırımlara səpələdikcə: "bir atdım, beş götürüm, mən qoydum, sən də qoy" deyərdi. Sonra o, ətrafdakılara "indi təbil çalın, bir səs salın (torpağa işarə edərək) ki, bəxtəvər cuşa gəlsin" sözlərilə müraciət edər və hamı əl çalıb, dəf-nağaranı bərkdən səsləndirərək hündürə hoppanmağa cəhd edərdi. Cavanlar cütçü babanın ətrafında yallı gedərək ayaqlarını möhkəmcə torpağa vurub onu qış yuxusundan oyatmağa çalışırdılar. Həmçinin əvvəlcədən əkin sahəsinin kənarına gətirilmiş qoyun sürüsünü şumlanmış sahəyə salardılar. Bu zaman torpağın iri topacıqları və kəsəkləri heyvanların ayaqları altında əzilər, torpağa səpilmiş toxumların üstü örtülərdi. Buna otlağı daramaq deyərdilər.

Torpaq çərşənbəsindən sonra tarladan torpaq üzərində qar, buz qalmamalıdır. Əks halda, torpaq boğula bilər. Bu, baş verməsin deyə həmin gün camaat üzərinə qar yağmış əkin yerlərini iri mal-qaraya tapdadar, üzərində at çapar, qarlı torpaq üstdə qoç və kəl döyüşü keçirərdilər. Bu çərşənbədə xalqımız bağ-bostanı, küçə və həyətlərdə ağacların dibindəki torpağı belləyib yumşaldar, xış-kotanı sazlayaraq, əkinə hazırlıq işlərini görüb qurtarar, təzə ilin ruzisinin təməlini qoyardı.

Axır çərşənbədə qapıya torba qoyub bayram payı yığmaq kimi qədim bir adət də mövcuddur. Müxtəlif vaxtlarda bu adət dəsmal, qurşaq, yaxud şal sallama şəklində həyata keçirilmişdir. Əslində, bu gün əyləncə xarakteri daşıyan bu adət qədim bir mərasimin qalığıdır. Məlumdur ki, insanlar o evdən, o ocaqdan köçmüş dədə-babalarının, əzizlərinin ruhlarının çərşənbə axşamında öz evinə qayıtdığına, orada baş verənləri müşahidə etdiyinə inanmış, onlar üçün bayram payı ayırmışlar. Bu gün qapını döyüb gizlənərək pay uman cavanlar bir vaxtlar ata-baba ruhunu təmsil edən üzübağlı, qara libaslı yaşlıları əvəzləyirlər. Həmin əyyamlardan bizi uzun bir dövr ayırdığından bu adətin əsl mahiyyəti, ilkin məqsədi unudulub təhrif olunmuşdur.

Torpaq çərşənbəniz mübarək!

**Almara NƏBİYEVA,**
**Dədə Qorqud elmi-tədqiqat laboratoriyasının müdiri, filologiya üzrə fəlsəfə doktoru.**

# NOVRUZU GÖYÇƏMİZDƏ DƏ QEYD EDƏCƏYİK...

***...Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm...***

***Heydər ƏLİYEV,***
***Ümummilli lider.***

XIX əsrin əvvəllərindən başlayaraq düşünülmüş, məqsədyönlü şəkildə erməni şovinistləri azərbaycanlıları öz tarixi Azərbaycan torpaqlarından, ata-baba yurdlarından didərgin salmış, onların əmlaklarını talamış, evlərini yandırmış, onlara divan tutaraq deportasiya həyata keçirmişlər. Erməni faşistləri bu ərazilərdə on minlərlə dinc azərbaycanlı əhalini - qadını, uşağı, qocanı, yalnız milli mənsubiyyətlərinə görə vəhşicəsinə qətlə yetirmiş, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri dağıtmış və yandırmışlar. Qərbi Azərbaycanın dilbər guşələrindən olan, ulu babalarımızın, nurlu nənələrimizin ruhları yaşayan, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən Göyçə gölünün nəğməli sahillərində uyuyan, əslən həmin mahaldan olan **Gəncə Ağsaqqallar Şurasının sədri, "Tərəqqi" medallı, Əməkdar müəllim, professor Nurəddin Məmmədovla** həmsöhbət olduq. Nurəddin müəllim dedi: Azərbaycan Prezidenti cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında həmin mahaldan olan bir qrup ziyalı ilə görüşündə qeyd etmişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır. Göyçə, Zəngəzur, İrəvan bizim tarixi torpaqlarımızdır. Biz, azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və o torpaqlara qayıdacağıq. Biz tariximizi heç vaxt unutmamalıyıq".

Əslində bu cəsarətli çağırış bizi gələcəyə istiqamətləndirən bir yol xəritəsidir. Çünki müqəddəs torpaq həsrəti üçün hamımızın qəlbimiz bir vurur. Bəli, Göyçə mahalı oğuz türklərinin ən qədim yaşayış məskənlərindən biri olmuşdur. Şah dağından baxanda bu mahal ortasına ayna salınmış güllü bir nəlbəkini xatırladır. Göyçə mahalı çox qədim zamanlardan bəri el şairlərinin vətəni olmuşdur və orada yaşayıb-yaratmış saz ustaları aşıq sənətini yaşadıblar. Buranın əhalisi şad günlərdə, qəmli anlarda qədim qopuzun varisi olan sazı kökləmiş və onun sədaları ilə ürək çırpıntısını, daxili sızıltısını ifadə etmişdir. Göyçənin elə bir guşəsi yoxdur ki, orada türk-oğuz izlərinə rast gəlinməsin. Toxluca kəndindəki Qanqalı dağı, Göyərçin kəndində Qara Quzey dağı, Zod aşırımında soyuq bulaq uzaq keçmişdən bu günə kimi oğuz türklərinin daş yaddaşı olub. Göyçə elinin şifahi xalq ədəbiyyatı nümunələrindəki mifoloji varlıqlar haqqında inanclarının kökü qədim dövrə gedərək tanrıçılıq, şamançılıq dünyagörüşünə söykənir. Geniş münbit otlaqlara malik olan Göyçə mahalında yaşayan əhali daha çox əkinçilik, maldarlıq, arıçılıq, bağçılıq, xalçaçılıq və balıqçılıqla məşğul olmuşdur. Olduqca zirək, cəsarətli, qoçaq olan bu insanlar özləri üçün hər bir şərait yaratmış, firavan yaşamışlar. Amma xəbis, naxələf, hiyləgər erməni daşnakları zaman-zaman bu dinc xalqa qarşı çirkin niyyətlərini həyata keçiriblər. Ermənilər çox yaşayan ərazilərdə azərbaycanlılara sataşır, alçatmağa çalışırdılar, amma mərd, cəsur insanlar bunun qarşısını ləyaqətlə alırdılar. Nəhayət, məlum hadisələrdən sonra onlar açıq-açığına



baş qaldırmağa başladılar. Belə ki, ümummilli lider Heydər Əliyevin keçmiş sovetlər birliyi Nazirlər Sovetindən istefası ilə onların daha da əl-qolu açıldı. Bundan sonra isə erməni millətçiləri öz havadarlarının köməyi ilə Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Kəndlərimizin tarixi adları kütləvi şəkildə dəyişdirildi, toponimika tarixində misli görünməyən hadisə - qədim toponimlərin müasir erməni adları ilə əvəzolunma prosesi baş verdi. 1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından-indiki Ermənistandan növbəti deportasiyası baş verdi, nəticədə 250 min azərbaycanlı öz vətənindən qaçqın düşdü. Neçə-neçə ailə başsız qaldı, bəziləri isə ömürlük əlilə çevrildilər. 20 Yanvar faciəsi törədildi və bütün dünya buna susdu... 21 yanvar 1990-cı ildə qorxmadan, çəkinmədən, həyatını təhlükəyə ataraq, böyük cəsarətlə Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, bu vəhşiliyi qətiyyətlə pisləməklə yanaşı, onun törədilməsi səbəblərini də açıqladı, təşkilatçılarının, günahkarlarının adını bütün dünyaya bəyan etdi.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə möhkəmlənən mövqeyi və real beynəlxalq vəziyyət ötən əsrdən tamamilə fərqli olduğuna görə tam əminik ki, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli nəticəsində doğma Qərbi Azərbaycandakı torpaqlarımıza qayıdış, daşnak ideyalarının davamçılarının isə öz yerlərində oturdulması mümkün olacaqdır. Bu gün böyük fəxarətlə, qürurla deyirik ki, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev həyata keçirdiyi düşünülmüş və qətiyyətli siyasəti ilə xalqımızın arzusunu və ulu öndərin vəsiyyətini yerinə yetirdi. Artıq Novruz bayramı işğaldan azad olunmuş torpaqlarımızda, doğma Qarabağımızda böyük şadyanalıqla, təmtəraqla qeyd olunur. "Mən xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim!", - deyən möhtərəm Prezidentimiz İlham Əliyev həm də 30 illik bir həsrətə son qoydu, müdrik Azərbaycan xalqının arzularını, istəklərini reallaşdırdı, həyata keçirdi. İşğaldan azad edilən əzəli-əbədi torpaqlarımızda 30 ildən sonra Novruz sevinci yaşanır, bayram tonqalları qalanır. Bu il də Novruz bayramının düşmən tapdağından azad edilən torpaqlarda qeyd edilməsi müstəqil Azərbaycan dövlətinin tarixinin ən şanlı, qürurlu səhifəsidir. Tam əminliklə deyə bilərik ki, yenə də Göyçəmizdə bayram tonqalları yanacaq. Novruz adət-ənənələrimiz davam edəcək. Bəli, tarix təkrarlanır... Qərbi Azərbaycanlılar tezliklə öz torpaqlarına qovuşacaqlar... Bunu Müzəffər Ali Baş Komandan, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günə düşmən üzərində möhtəşəm qələbəsi, dünyada hərbi gücümüzün, qüdrətimizin, Azərbaycan əsgərinin cəsarəti, igidliyi, qəhrəmanlığı böyük inam yaradıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# DÜNYA BUGÜN

## Xəbərlər

### VLADİMİR PUTİN SEÇİCİLƏRİN 87,28 FAİZİNİN DƏSTƏYİNİ QAZANIB



Rusiyanın hazırkı prezidenti Vladimir Putin prezident seçkilərində protokolların 100 faizi hesablandıqdan sonra seçicilərin 87,28 faizinin dəstəyini qazanıb. "Trend" agentliyinin xəbərinə görə, bu barədə Rusiya Mərkəzi Seçki Komissiyasının saytında məlumat dərc olunub.

Məlumata əsasən, ikinci yerdə 4,32 faiz səslə Kommunist Partiyası fraksiyasından Dövlət Dumasının deputatı Nikolay Xaritonovdur.

Bununla yanaşı, Dövlət Dumasının vitse-spikeri, Yeni İnsanlar Partiyasının üzvü Vladislav Davankov 3,83 faiz səslə üçüncü yeri tutur.

Xəbər verilir ki, Rusiya Liberal Demokrat Partiyasının (LDPR) rəhbəri Leonid Slutski seçicilərin 3,2 faiz dəstəyini alaraq dördüncü yerdədir.

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyası martın 21-də Rusiya Federasiyasında keçirilən prezident seçkilərinin nəticələrinə rəsmi yekun vuracaq. MSK sədri Ella Pamfilovanın sözlərinə görə, seçici fəallığı müasir Rusiya tarixində rekord göstərici olub: seçki məntəqələrinə 87,1 milyondan çox rusiyalı, yəni seçicilərin 77,44 faizi gəlib. Yeni prezident 6 il vəzifəsində qalacaq.

### İSRAİLİN BAŞ NAZİRİ QƏRB MÜTTƏFİQLƏRİNİ SƏRT TƏNQİD EDİB



İsrailin baş naziri Benyamin Netanyahu bəzi Qərb müttəfiqlərini "HƏMAS-dakı qatilləri" unutmaqda və İsrail Müdafiə Qüvvələrinə qarşı saxta ittihamlar irəli sürməyə çalışmaqda ittiham edib. Bu barədə "Financial Times" nəşri xəbər verib.

"Yəni siz İsrailin HƏMAS qatillərinə qarşı özünü müdafiə etmək hüququnu bu qədər tez inkar edirsiniz?", - deyə baş nazir sualla müraciət edib. Netanyahu vurğulayıb ki, bu cür bəyanatlar verənlər Holokostdan sonra ən dəhşətli qətliamı unudublar.

Eyni zamanda, İsrailin baş naziri konkret adlar çəkməyib. Onun fikrincə, seçkilərin keçirilməsində israrlı olan beynəlxalq ictimaiyyətin nümayəndələri "çox yaxşı başa düşürlər ki, onlar ölkəni altı ay iflic vəziyyətinə salacaq və əməliyyatın dayandırılmasına gətirib çıxaracaqlar".

Xatırladaq ki, bu ərəfədə Fələstinin HƏMAS hərəkatının İsraillə münaqişənin həlli üzrə danışıqlar prosesində vasitəçilik edən ölkələrə Qəzza zolağında atəşkəs təklifi göndərdiyi məlum olub.

### ŞİMALİ KOREYA LİDERİNİN VARİSİNİN ADI MƏLUM OLUB



Şimali Koreya lideri Kim Çen Inın 10 yaşlı qızı Kim Çju-E artıq bir ildən çoxdur ki, atasını bir çox ictimai tədbirlərdə müşayiət edir. "Teleqraf.com"un xəbərinə görə, bunu Cənubi Koreyanın Birləşmə Nazirliyinin sözçüsü Ku Byon Sam bildirib.

Məlumata əsasən, ölkə rəsmisi Şimali Koreya Mərkəzi Xəbər Agentliyi Kim Çen Inın öz qızıyla bölgələrə son səfərləri ilə bağlı xəbərlərini dəyərləndirib.

Şimali Koreya agentliyinin bundan öncə Kim Çju-Eni təqdim edərkən istifadə etdiyi ifadənin dəyişdiyinə diqqət çəkən Ku Byon Sam rəsmi materiallarda Kim Çen In və qızı üçün "rəhbərlik edən böyük insanlar" ifadəsinin işlədildiyin vurğulayıb.

"Şimali Koreyanın rəsmi mediasında istifadə edilən ifadələr və protokol qaydalarına görə Kim Çju-Enin varis olması ehtimalı istisna edilə bilməz", - deyə Ku Byon Sam qeyd edib.

Xatırladaq ki, Şimali Koreya liderinin qızı Kim Çju-E 2022-ci ilin noyabrından bəri çoxsaylı hərbi tədbirlərdə, raket buraxılışlarında mütəmadi olaraq iştirak edib.

### "SPACEX" ŞİRKƏTİ CASUS PEYKLƏR ŞƏBƏKƏSİ YARADIR



Dünyaca məşhur iş adamı İlon Maska məxsus "SpaceX" şirkəti ABŞ kəşfiyyatı ilə gizli müqavilə çərçivəsində yüzlərlə casus peykdən ibarət şəbəkə qurur. Bu barədə "Röyters" agentliyi öz mənbələrinə istinadən məlumat yayıb.

Bildirilir ki, şirkətin 2021-ci ildə ABŞ Milli Kosmik Kəşfiyyat Agentliyi ilə imzaladığı 1,8 milyard dollarlıq müqaviləyə əsasən, şəbəkənin yaradılmasına "Starshield" bölməsi cavabdehdir.

Verilən xəbərə əsasən, sözügedən müqavilə ABŞ Müdafiə Nazirliyinin Quru Qüvvələrini dəstəkləmək üçün nəzərdə tutulmuş aşağı orbitli peyk sistemlərinə əhəmiyyətli investisiyalar yatırdığını göstərir.

Razılaşma müvəffəqiyyətli olarsa, "SpaceX" şəbəkəsi ABŞ ordusunun Yer kürəsinin demək olar ki, hər yerində potensial hədəfləri tez aşkar etmək imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

### SERBİYA PREZİDENTİ UKRAYNA MÜNAQİŞƏSİNİN İKİ SSENARİSİNİ AÇIQLAYIB



Qərbin Ukraynada münaqişənin inkişafı üçün iki ssenarisi mövcuddur. "Report" agentliyinin verdiyi xəbərə görə, bu barədə fikirləri Serbiya prezidenti Aleksandr Vuçiç "B92" telekanalına müsahibəsində açıqlayıb.

"Ya Qərb Rusiya ilə tamhüquqlu münaqişə yolunu tutacaq, ya da ABŞ və Çinin köməyi ilə hansısa barışıq əldə olunacaq ki, bu da dünya üçün böyük rahatlıq anlamına gəlir", - deyə dövlət başçısı bəyan edib.

Aleksandr Vuçiç qeyd edib ki, Rusiya ilə Qərb arasında birbaşa münaqişədən heç kim fayda görməyəcək və insan itkiləri baxımından nəticələr İkinci Dünya müharibəsi dövründəkindən daha ciddi ola bilər.

Eyni zamanda, Aleksandr Vuçiç əmindir ki, belə bir münaqişə Serbiyaya da təsir edəcək, bu səbəbdən də ölkəsi vəziyyətin istənilən inkişafına hazırlaşmalıdır. Həmçinin prezidentin sözlərinə görə, 100 gün ərzində Qərbin hansı ssenarini seçəcəyi bəlli olacaq.

### NİGER ABŞ ORDUSUNUN ÖLKƏDƏN ÇIXARILMASI ÜZRƏ PLAN TƏLƏB EDİR



Nigerdə hakimiyyəti ələ keçirən üsyançılar ABŞ-la hərbi müqaviləni ləğv edib. "Röyters" agentliyinin xəbərinə əsasən, bu barədə rejimin sözçüsü polkovnik Amadu Abdraman bildirib.

Eyni zamanda, məlumata görə, artıq Niger hakimiyyəti ABŞ-dan qoşunların ölkədən çıxarılmasına dair planı təqdim etməyi gözləyir.

Qeyd olunub ki, ABŞ nümayəndə heyəti diplomatik protokola əməl etməyib və heyətinin tərkibi, gəliş tarixi və gündəliyi barədə Nigeri məlumatlandırmayıb.

Xəbərə görə, müvafiq müqavilə Pentaqonun amerikalı hərbçilərinə və mülki işçilərinə Afrika ölkəsinin ərazisində qalmağa icazə verir.

Bununla yanaşı, agentlik əlavə edib ki, ABŞ-ın Nigerdə iki, o cümlədən ölkənin şimalında pilotsuz uçuş aparatı bazası var. Həmçinin 2023-cü ilə qədər Nigerdə təxminən 1100 ABŞ hərbi qulluqçusu olub.

### PAKİSTAN ƏFQANISTANDAKI TERRORÇULARA AVİAZƏRBƏLƏR ENDİRİB



Pakistan təyyarələri Əfqanıstanın Xost və Paktika əyalətlərinə hava zərbələri endirib. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, Pakistanın Əfqanıstanın sərhəd bölgələrinə endirdiyi hava zərbələri nəticəsində 8 nəfər həlak olub.

Bununla yanaşı, Əfqanıstandakı "Taliban" hökumətinin sözçüsü ölkə ərazisinə endirilən zərbələri pisləyib və bunu suverenliyin pozulması adlandırıb.

Qeyd edək ki, "Təhrik-i-Taliban" qruplaşmasının Əfqanıstandakı bazaları İslamabadla Kabil arasında münasibətlərin dondurulmasına səbəb olub. Məlumata əsasən, "Əl-Qaidə" ilə bağlı olan qruplaşmanın 50 minə yaxın üzvü olduğu iddia edilir.

Xatırladaq ki, martın 16-da Pakistanın Şimali Vəziristan bölgəsində hərbi post bomba yüklü maşınla hücuma məruz qalıb. Hücumlar və sonrakı əməliyyatlar zamanı Pakistanın 7 əsgəri həyatını itirib, 6 silahlı isə öldürülüb.

**Hazırladı:**
**Vamiq ABBASOV,**
**"Respublika".**

# Hava necə olacaq?

Proqnoz — 19 mart

## Bakı-Sumqayıt-Abşeron



Gecə: 8° C. Şimal, Şimal-Qərb küləyi: 10 - 17 m/san. Gündüz: 9° C.
Nisbi rütubət: gecə 83%, gündüz 84-88%. Atmosfer təzyiqi: 758-762 mm c.s.

## Naxçıvan Muxtar Respublikası



Gecə: 9° C. Şərq, Cənub-Qərb küləyi: 3 - 5 m/san. Gündüz: 9° C.
Nisbi rütubət: gecə 80%, gündüz 81-95%. Atmosfer təzyiqi: 677-682 mm c.s.

## Qarabağ, Şərqi Zəngəzur




Gecə: 4° C. Şimal-Şərq küləyi: 3 - 6 m/san. Gündüz: 4° C.
Nisbi rütubət: gecə 93%, gündüz 96-100%. Atmosfer təzyiqi: 644-648 mm c.s.

## Gəncə-Qazax



Gecə: 8° C. Şimal-Şərq, Şərq küləyi: 1 - 8 m/san. Gündüz: 9° C.
Nisbi rütubət: gecə 91%, gündüz 80-95%. Atmosfer təzyiqi: 720-724 mm c.s.

## Balakən-Şəki, Quba-Qusar



Gecə: 8° C. Şimal küləyi: 2 - 5 m/san. Gündüz: 9° C.
Nisbi rütubət: gecə 87%, gündüz 90-95%. Atmosfer təzyiqi: 709-713 mm c.s.

## Mingəçevir-Şirvan



Gecə: 10° C. Cənub-Şərq küləyi: 2 - 9 m/san. Gündüz: 10° C.
Nisbi rütubət: gecə 85%, gündüz 87-93%. Atmosfer təzyiqi: 755-758 mm c.s.

## Lənkəran-Astara



Gecə: 9° C. Şimal, Şimal-Şərq küləyi: 1 - 5 m/san. Gündüz: 9° C.
Nisbi rütubət: gecə 98%, gündüz 91-97%. Atmosfer təzyiqi: 761-764 mm c.s.

# 597,3 min arı ailəsindən 4550,0 ton bal əldə olunub




**Dövlət Statistika Komitəsi tərəfindən təşkil olunmuş statistik müşahidənin nəticələrinə görə, 2023-cü ildə 30802 təsərrüfatda mövcud olan 597,3 min arı ailəsindən 4550,0 ton bal, 172,7 ton mum, 14,9 ton vərəmum, 8,9 ton güləm və 281,1 kq arı südü əldə olunub. Balın 1 kiloqramının orta satış qiyməti 25,8, mumun - 15,9, vərəmumun - 97,2, güləmin - 132,7, arı südünün 1 qramının orta satış qiyməti isə 6,0 manat olub.**

2022-ci illə müqayisədə 2023-cü ildə arı ailələrinin sayı 9,0 faiz, bal istehsalı 38,9 faiz, mum istehsalı 0,8 faiz, vərəmum istehsalı 22,0 faiz, güləm istehsalı 62,0 faiz, arı südü istehsalı 25,9 faiz, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı isə 2,5 faiz azalıb. Arıçılıq məhsullarının istehsalındakı azalma havaların əlverişsiz keçməsinin nəticəsidir.

**"Respublika".**

# "Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək" layihəsinin icrasına başlanılıb

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) təşəbbüsü və təşkilatçılığı, Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə "Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək" layihəsinin icrasına başlanılıb.**

Layihənin əsas missiyası Cəmiyyətin hasilat işləri apardığı bölgədə sahibkarlıq ekosisteminin inkişafına, Daşkəsən rayonunun ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan kartofçuluğun sahibkarlıq növü kimi təşviqinə və dəmyə üsulu ilə kartof istehsalının artırılmasına töhfə verməkdir.

Layihəyə Kənd Təsərrüfatı Nazirliyinin "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi"ndə qeydiyyatda olan, əkinəyararlı minimum 1 hektar torpaq sahəsinə malik Quşçu və Zəylik kənd sakinləri - fermerlər cəlb ediliblər.

15 mart 2024-cü il tarixində Kənd Təsərrüfatı Nazirliyinin Daşkəsən Dövlət Aqrar İnkişaf Mərkəzində layihəyə cəlb edilmiş kartofçu-fermerlərlə görüş keçirilib. Görüşün əsas məqsədi fermerlərin layihə barədə məlumatlandırılması, kartofçuluq fəaliyyəti zamanı təsərrüfat sahiblərinin qarşılaşdıqları çətinliklər və onların aradan qaldırılması yollarının müzakirə edilməsi, əsas ehtiyacların öyrənilməsidir. Fermerlərə torpaqların münbitliyinin qorunması, bərpası, artırılması və mühafizəsi sahəsində aqrotexniki, aqrokimyəvi, fitosanitar, zərərvericilərə qarşı mübarizə və digər kompleks tədbirlərin hazırlanması istiqamətində atılacaq addımlar barədə məlumat verilib.



Layihə çərçivəsində ümumilikdə 10 hektar əkin sahəsində yüksək məhsuldarlığın əldə edilməsi üçün toxum, xidmət və mallara dair əsas ehtiyacların qarşılanması, layihə iştirakçılarının bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün nəzəri və praktiki təlimlərin təşkili nəzərdə tutulub. Əkin mövsümünün sonunda əldə edilmiş məhsulun 85%-nin fermerlərə bağışlanması, məhsulun 15%-nin isə Səhmdar Cəmiyyət tərəfindən xeyriyyə məqsədilə istifadə edilməsi planlaşdırılır.

Qeyd edək ki, "AzerGold" QSC-nin dövlət siyasətinə uyğun olaraq icra etdiyi sosialyönümlü tədbirlər bölgənin inkişafına, əhalinin məşğulluğunun artırılmasına, onların rifah halının yüksəldilməsinə xidmət edir. Cəmiyyətin hasilat sahələrinin yaxınlığında yerləşən kəndlərin sakinləri mütəmadi olaraq ətraf mühitin mühafizəsi, təhsil, sağlamlıq, məşğulluq, sahibkarlığın təşviqi və s. istiqamətlər üzrə icra edilən layihələrdən faydalanırlar. ■


**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun struktur idarələrinə tələb olunan taxta materiallarının satınalınması məqsədilə*

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 28-i saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı şəhəri, Mikayıl Useynov 2.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun struktur idarələrinə tələb olunan avtoşinlərin satınalınması məqsədilə*

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il martın 29-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı şəhəri, Mikayıl Useynov 2.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1263.*

**"Beyləqan Təmir-Tikinti" ASC**
**BİLDİRİŞ**

4 may 2024-cü il tarixində saat 12:00-da cəmiyyətin səhmdarlarının ümumi yığıncağı keçiriləcək.

**Gündəlik məsələlər:**

**1.** "Beyləqan Təmir-Tikinti" ASC-nin 2023-cü il üçün maliyyə hesabatı haqqında

**2.** "Beyləqan Təmir-Tikinti ASC-nin təşkilati-hüquqi formasının dəyişdirilərək, "Beyləqan Təmir-Tikinti" MMC-yə çevrilməsi haqqında

**3.** "Beyləqan Təmir-Tikinti" MMC-nin direktorunun təyin edilməsi

**4.** Digər cari məsələlər.

İclasın keçiriləcəyi ünvan: Beyləqan şəhəri, RTS yolu, 6 saylı məktəblə üzbəüz. Əlaqə telefonu: +994 50 489-45-45

BEYLƏQAN "SU-TİKİNTİ" ASC-nin səhmdarlarının nəzərinə çatdırırıq ki, cəmiyyətin növbədənkənar iclası 19 aprel 2024-cü il saat 11:00-da keçiriləcək.

**Yığıncağın gündəliyi:**

İcraçı direktorun dəyişdirilməsi.

**Beyləqan "Su-Tikinti"ASC-nin rəhbərliyi.**

"ALATAVA AVTONƏQLİYYAT" QSC-in səhmdarlarının nəzərinə çatdırırıq ki, cəmiyyətin illik hesabat iclası 27.04.2024-cü il saat 11:00-da keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

İllik hesabat

Digər məsələlər

**"ALATAVA AVTONƏQLİYYAT" QSC-in rəhbərliyi.**


# OXUCULARIN NƏZƏRİNƏ!

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET

*qəzetinə 2024-cü ilin birinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

***Abunə yazılışı üçün respublikanın bütün poçt şöbələrinə və özəl mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz.***

| | |
|---|---|
| 6 aylıq | 93,60 (doxsan üç manat altmış qəpik) manat |
| 1 illik | 187,20 (bir yüz səksən yeddi manat iyirmi qəpik) manat |

**Hörmətli oxucular!**

**Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 510-82-52, (012) 493-59-08 və (012) 537-07-06 nömrəli telefonlara zəng vura bilərsiniz.**

**Abunə yazılmağa tələsin!**

**ALLAH RƏHMƏT ELƏSİN**

**AMEA nəzdində RSXM-in Baş direktoru Qurban Yetirmişli və kollektivi baş direktorun müavini Fətəli Abdullayevə, qardaşı**

**DOSTƏLİ NƏRİMAN oğlu ABDULLAYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

**Bakı Dövlət Universiteti və Həmkarlar İttifaqi Komitəsi Şərqşünaslıq fakültəsi, İslamşünaslıq Elmi-Tədqiqat Mərkəzinin rəhbəri, professor**

**ƏSƏDULLA QURBANOVUN**

**vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**


**Baş redaktor**

**Hümbət MUSAYEV**

**Redaksiya ilə əlaqə nömrələri**

| | |
|---|---|
| Qəbul otağı | 493-59-08 |
| Katiblik | 538-43-41 |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası | 538-55-20 |
| Rəqəmsal inkişaf, iqtisadiyyat və islahatlar redaksiyası | 434-56-90 |
| Humanitar siyasət redaksiyası | 538-25-70 |
| Xəbərlər, ictimai rəy və sosial problemlər redaksiyası | 538-01-31 |
| Texniki şöbə | 538-61-02 |
| Ümumi şöbə | 510-82-52 |
| Reklam və elan xidməti | 441-20-23 |

**Redaksiyanın ünvanı**

AZ1073, Bakı, Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.

www.respublika-news.az

respublikaqezeti@mail.ru, resp.paper@gmail.com

Qeydiyyat №7 İndeks 0240 Tiraj: 4257

*"Respublika" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.*

Qəzetin saytına keçid üçün QR kodu telefonunuzla oxudun

Sifariş 655, Satış qiyməti 60 qəpik


# Elmi-texniki yeniliklər




## "Volkswagen ID"nin istehsalı ləğv edildi




**Almaniyanın tanınmış avtomobil brendi "Volkswagen" elektrikli avtomobil bazarında istədiyi nəticəni əldə edə bilməyib. Məhz bu səbəbdən də "Volkswagen ID" istehsalını ləğv edib.**

Qeyd edək ki, şirkət tamamilə elektrikli ID seriyasının istehsalını Almaniyadakı əsas fabriki - "Wolfburg"da davam etdirirdi. Lakin ötən günlərdə alman avtomobil nəhəngi "xərcləyəcəyimiz hər avro dəyərlidir" deyərək istehsalı bu fabrikdə dayandırıb. Onu da bildirək ki, "Volkswagen ID" seriyası şirkətin elektrikli avtomobil bazarında ilk böyük layihəsi idi.

"Volkswagen" ID istehsalını dayandırdıqdan sonra isə əsasən daxili yanma mühərrikli və hibrid "Golf" və "Tiguan" modellərinin istehsalını davam etdirəcək. Şirkətin meneceri Christian Vollmer bildirib ki: "Bunlar fabrikin səmərəli işləməsini təmin edəcək etibarlı modellərdir". Hətta Vollmer verilən qərardan sonra uzun müddət ərzində ilk dəfə bu il "Wolfburg" fabrikində istehsal olunan avtomobillərin sayının 500 mini ötəcəyini düşünür. Son dövrlərdə avropalı avtomobil nəhənglərinin elektrikli avtomobillərə marağı azalıb. Daha əvvəl 2030-cu ilə qədər tamamilə elektrikli avtomobillər istehsalına yönəlmək istəyən brendlər artıq ənənəvi seriyalarına fokuslanır.

## "Starship"in orbital uçuş cəhdi uğurlu olub





İlon Maskın "SpaceX" şirkətinə məxsus "Starship" adlı kosmik gəmisi üçüncü orbital uçuş cəhdini reallaşdırıb. Qeyd edək ki, bundan öncəki iki orbital uçuş cəhdi keçən il baş tutmuşdu. Aprel ayında birinci orbital uçuş cəhdi uğursuz olmuşdu. Noyabr ayında keçirilən ikinci orbital uçuş cəhdi isə nisbətən uğurlu hesab edilmişdir. Lakin bu dəfə "SpaceX" sözügedən kosmik gəmisini uğurlu şəkildə Yer kürəsinin orbitinə göndərə bilib.

Şirkətdən verilən məlumata görə, "Starship"i özündə birləşdirmiş "Super Heavy" adlı sürətləndirici raketin 33 ədəd Raptor mühərrikinin hamısı bu dəfə problemsiz çalışıb. Kosmik gəmi öz növbəsində startdan 2 dəqiqə 45 saniyə sonra "Super Heavy" raketinin ikinci pilləsindən ayrılaraq Yer kürəsi ətrafında uçuşa istiqamət alıb. Gözləntilərə əsasən, kosmik gəmi planetimizin orbitinin yarı hissəsini qət edərək Hind okeanına düşəcək.

## "OpenAI" imzalı "Sora" istifadəyə veriləcək



Süni intellekt sahəsində daha bir yenilik istifadəçilərə təqdim ediləcək. Belə ki, ötən aylarda bütün diqqəti öz üzərinə çəkməyi bacaran "OpenAI" şirkətinin süni intellekti "Sora" bu ilin sonuna qədər istifadəyə veriləcək. Hələ dəqiq tarix elan edilməsə də məlumata görə, şirkət bütün hazırlıqları artıq tamamlayıb. "OpenAI" şirkətinin CEO-su Mira Murati tərəfindən edilən açıqlamaya görə, yaxın aylarda "Sora"nı istifadəyə verməyi düşünür. Qeyd edək ki, şirkətin yeni süni intellekt modeli "Sora" yazılanlardan 60 saniyəlik videolar hazırlaya bilir. Ötən aylarda təqdim edilən "Sora" məhz bu səbəbdən bütün diqqəti öz üzərinə cəlb edə bilmişdi. Şirkətdən verilən məlumata görə, müəyyən təhlükəsizlik risklərinə qarşı "Sora" ilk mərhələdə bəzi insanlar üçün əlçatan olacaq. Bundan əlavə, süni intellekt sisteminin sui-istifadəsinin qarşısını almaq üçün daha sonra ictimaiyyətə təqdim ediləcəyi bildirilib. Qeyd edək ki, insanların istəklərini fiziki reallıqla qarışdıran sistem hələ tam mükəmməl deyil. Ekspertlər şirkətə məxsus digər süni intellekt sistemləri kimi "Sora"nın da zamanla təkmilləşəcəyini söyləyirlər.

## "WhatsApp"a daha bir funksiya gəlir




"WhatsApp" tərtibatçıları biometrika və paroldan istifadə edərək yaxın zamanda messencerə tətbiqin bloklanması funksiyasını əlavə etməyi planlaşdırırlar.

Məlumata görə, barmaq izi, üz cizgilərinin tanınması və ya paroldan istifadə edərək tətbiqin bloklanmasına imkan verən yenilik "WhatsApp"ın 2.24.6.20 "Android" versiyalarının bəzi beta-testerlərində artıq işləkdir. Qeyd olunub ki, əvvəllər tətbiqi yalnız biometrik parametrlərdən istifadə etməklə bloklamaq mümkün idi ki, bu da cihazlarında müvafiq sensorlar olmayan və ya digər qorunma üsullarına üstünlük verənlərin imkanlarını məhdudlaşdırırdı. Bundan əlavə, qışda barmaq izi kilidi qoyan istifadəçilər naməlum xəta səbəbindən "WhatsApp"a daxil ola və parol seçə bilmirdilər.

Qeyd edək ki, hazırda yeni funksiya məhdud sayda tester üçün əlçatandır. Tətbiqin daha geniş auditoriyaya nə vaxt təqdim olunacağı barədə məlumat verilməyib.

**Hazırladı:**
**Elenora HƏSƏNOVA,**
**"Respublika".**